RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 266 (8859) ÇƏRŞƏNBƏ, 8 dekabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## Regionun güc və söz sahibi




### İlham Əliyevin qlobal təşəbbüsləri regionda yeni əməkdaşlıq platformalarının yaranmasını şərtləndirir

**İkinci Qarabağ müharibəsindəki şanlı Zəfəri ilə Cənubi Qafqazda yeni reallıqlar yaradan Azərbaycanın həm də beynəlxalq münasibətlər sistemindəki yeri və rolu daha da güclənib.**

**Bu gün Azərbaycan yeni hərbi-siyasi güc mərkəzi, beynəlxalq arenada sözü eşidilən, mövqeyi qəbul edilən dövlət kimi qəbul edilir. Azərbaycanın regionda uzunmüddətli sülhün, əməkdaşlığın və təhlükəsizliyin təmin olunması üçün yaratdığı şərait beynəlxalq təşkilatlar və güc mərkəzləri tərəfindən də təqdir olunur.**

#### Hadisələrin inkişaf istiqamətini müəyyən edən ölkə

**Son 18 ildə həm İlham Əliyevin təşəbbüsü, həm də Azərbaycanın iştirakçılığı ilə reallaşan qlobal transmilli layihələr ölkəmizi Avropanın enerji təhlükəsizliyinin təminatçısına və Avrasiyanın nəqliyyat-logistika mərkəzlərindən birinə çevirib.**

**İkinci Qarabağ müharibəsindən sonra regionda yaranmış yeni reallıqların ən prioritet məsələsi təbii ki, kommunikasiyaların açılması, yeni nəqliyyat tranzit marşrutlarının yaradılmasıdır.**

**Nəhəng nəqliyyat, logistik layihələrin reallaşmasında, onlarca ölkəni birləşdirən "Şərq-Qərb", "Şimal-Cənub" və "Şimal-Qərb" nəqliyyat dəhlizlərinin yaradılmasında böyük rol oynayan Azərbaycan yenə də əsas söz sahibidir. Eyni zamanda Prezident İlham Əliyev iştirak etdiyi bütün beynəlxalq toplantılarda dost və tərəfdaş ölkələri birgə əməkdaşlığa dəvət edir.**

**Regionun təhlükəsizliyi və daha da inkişafı üçün irəli sürülən ən mühüm təkliflərdən biri də 3+3 formatıdır.**

*Ardı 3-cü səh.*

## Heydər Əliyev Fondunun layihələri Həştərxanda yüksək qiymətləndirilir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru İqor Babuşkinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Azərbaycanla Rusiya Federasiyası arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyi bildirildi, ölkəmizin Rusiya Federasiyasının ayrı-ayrı subyektləri, o cümlədən Həştərxan vilayəti ilə səmərəli əməkdaşlıq həyata keçirdiyi vurğulandı.

Prezident İlham Əliyevin Həştərxana səfərləri məmnunluqla xatırlandı və bu səfərlərin əlaqələrimizin genişlənməsinə töhfə verdiyi xüsusi qeyd edildi.

*Ardı 2-ci səh.*

## MƏN MÜHARİBƏ VETERANIYAM

### Amma müqəddəsliyi adiləşdirmək, kiçiltmək kimsəyə başucalığı gətirməz!

**Gizlətmirəm, I Qarabağ müharibəsindən sonra bu sözü həvəssiz, yavaşdan, sıxıla-sıxıla deyirdik!**

**Çünki dilimiz qısa idi - torpaq itirmişdik!**

20 min şəhid versək də, ölkə ərazisinin 20 faizi işğala məruz qalmışdı!

Həm də bu, nə "könüllü özünümüdafiə batalyonu"nun, nə döyüşən əsgərin təqsiri idi, nə də sonradan məşəqqətli "qaçqın həyatı" yaşamaq zorunda qalan məcburi (artıq keçmiş məcburi) köçkünlərin - yerli sakinlərin günahı üzündən baş vermişdi.

*Düşmən güclü və arxalı, sözünü deyəni və müdafiə edəni də çox idi.*

*Vaxtında silahlandırılmış, ağzına dil verilmiş, özünə də hərtərəfli kömək göstərilirdi.*

*Bizdən isə hətta quş tüfənglərini belə yığmışdılar ki, birdən erməni tərəfə güllə atarıq!*

**Ən əsası, nə Ulu Öndər Heydər Əliyev kimi rəhbərimiz, nə də cənab İlham Əliyev kimi sərkərdəmiz var idi!**

Yanan da biz olduq, yaman da!

Adımızı "vəhşi", "qəddar" qoyaraq "məzlum" və "zavallı" ermənilərə "zülm" etdiyimizə görə doğma torpaqlardan qovdular, 30 il yurd həsrətilə qovrulduq.

Əlimiz heç yana, ünümüz heç kimə çatmadı!

*Nə kömək edən oldu, nə də BMT-nin Təhlükəsizlik Şurasının 4 qətnaməsini yerinə yetirən!*

*27 illik zülm və həsrətdən sonra, nəhayət, 10 noyabr 2020-ci ildə doğma torpaqlara qovuşduq!*

**Bu möcüzəni bizə 44 günlük Zəfər müharibəsindən sonra Müzəffər Ali Baş Komandan İlham Əliyev yaşatdı!**

**Torpağımızı da aldıq, qisasımızı da!**

❖ ❖ ❖

Müharibə qansız, ölümsüz, itkisiz olmur...

Bu qəhrəmanlıq döyüşlərində 3 minədək şəhid verdik, nə qədər yaralımız, əlilimiz oldu!

**Dövlət hamısına sahib çıxdı, ziyan çəkənlərə xüsusi qayğı göstərdi və göstərir də!**

*Lap dəqiqin desək, şəhid ailələrini və övladlarını, müharibə əlillərini və veteranlarını hər cür qayğı və güzəştlə əhatə edib:*

- Yaralıları müalicə edir, burada əlacı olmayanları sağaltmaq üçün dövlət vəsaiti hesabına Türkiyəyə göndərir.
- Ən müasir protezlərlə təmin edir.
- Ehtiyacı olanlara təmirli ev və ya mənzil verir.
- Pensiya və digər ödənişlər olunur.
- Əlillərə dövlət hesabına, necə deyərlər, yağın içində minik avtomobilləri bağışlanır.
- Şəhid övladları təhsil haqqından azad edilirlər.
- Hər yerdə, dövlət müəssisələrində, müalicə ocaqlarında hörmətlə qarşılayır, mümkün olan köməyi göstərirlər.
- Bu günlərdə şəhid ailələri və qazilər üçün yeni vergi güzəştləri də müəyyənləşdirildi.

*Ardı 3-cü səh.*

## Böyük qayıdışın astanasında

### Doğma yurdlarına qayıdacaq vətəndaşlarımız üçün Qarabağ və Şərqi Zəngəzurda yüksək şərait yaradılır, müasir infrastruktur qurulur

"...Mən onlara bizim bu qəhrəman əsgər və zabitlərimizin hüzurunda müraciət edərək deyirəm: Siz köçkün deyilsiniz, siz qayıdırsınız. Biz sizi qaytaracağıq. Bax, burada oturanlar, bizim minlərlə əsgər və zabitlərimiz sizi öz doğma dədə-baba torpaqlarınıza qaytarırlar. Biz Azərbaycan dövləti isə əlimizdən gələni edəcəyik ki, sizi tezliklə qaytaraq..."

44 günlük Vətən müharibəsində qazandığımız parlaq Zəfərin üzərindən heç bir gün keçməmiş, 11 noyabr 2020-ci ildə Müzəffər Ali Baş Komandan İlham Əliyev 1 saylı Kliniki Tibbi Mərkəzdə müalicə olunan hərbçilərlə görüşü zamanı öz doğma yurdlarından didərgin salınan yüzminlərlə insanın tezliklə doğma torpaqlarına qovuşacağının müjdəsini vermişdi.

İşğalçı Ermənistana qarşı aparılan haqq və ədalət mübarizəsinin və əldə olunan möhtəşəm Zəfərin əsas qayələrindən biri də məhz həmin insanların dədə-baba torpaqlarına qaytarılmasıdır.

*Ardı 7-ci səh.*

## İlham Əliyevin Qubadan səsləndirdiyi bəyanat erməniləri təşvişə saldı:

## "Qarabağ müharibəsindəki kabusu yenidən yaşamaq istəmirik"

Regionda davamlı sülh və əməkdaşlıq əlaqələrinin formalaşması Azərbaycan üçün prioritet istiqamətlərdən birini təşkil edir.

Bunun əsas şərtlərindən biri isə Zəngəzur dəhlizinin açılmasıdır. Bu fonda Prezident İlham Əliyevin səsləndirdiyi "Bizə tarix versinlər, Zəngəzur dəhlizi nə vaxt açılacaq və belə olan halda heç bir problem olmayacaq. Ona görə hesab edirəm ki, həm Ermənistan rəhbərliyi, həm Ermənistan ictimaiyyəti, əhalisi bunu başa düşməlidir" fikirləri Ermənistanda xüsusi diqqət mərkəzindədir.

### Yeganə çıxış yolu Azərbaycanla razılaşmaqdır

Kommunikasiyaların, o cümlədən Zəngəzur dəhlizinin açılması sülh prosesində mühüm və mümkün bir irəliləyiş olaraq qəbul edilir. Rəsmi Bakının yanaşmasına əsasən, kommunikasiyaların bərpası Azərbaycan və Ermənistan arasında əlaqələrin normallaşmasına xidmət etməklə yanaşı, iki ölkə üzərindən ticarət və nəqliyyat daşımalarını əhəmiyyətli dərəcədə artıracaq. Proseslərin bu səpkidə inkişafı Azərbaycan və Ermənistana mühüm dividendlər qazandıracaq, eyni zamanda ölkələrimizlə tərəfdaş münasibətində olan dövlətlərə böyük fayda verəcək.

Prezident İlham Əliyevin Qubadan Ermənistana verdiyi kifayət qədər açıq mesajlar erməni mediasının, sosial şəbəkə istifadəçilərinin də nəzərindən qaçmadı. Erməni ekspertlərin, media nümayəndələrinin və s. sosial şəbəkələrdəki statusları, şərhləri, mövqeləri əsasında hazırlanan araşdırmalardan görünür ki, onlar Zəngəzur dəhlizinin açılmayacağı təqdirdə ölkələrinin tam məhvə doğru gedəcəyini hesab edirlər və çıxış yolunu Azərbaycanla razılaşmaqda görürlər.

Erməni ekspert Henrix Qalosyan bildirir ki, kommunikasiyaların açılması, sərhədlərin müəyyən edilməsi ölkəsinin düşdüyü blokada vəziyyətindən xilası olacaq: "Zəngəzur dəhlizi bütün tərəflərin milli maraqlarına tam cavab verir.

*Ardı 3-cü səh.*

## Dövlətin sosial-iqtisadi siyasətinin güzgüsü

### 2022-ci ilin büdcəsi Azərbaycanın daha böyük hədəflərə kökləndiyini göstərir

İqtisadi inkişafın davamlılığının və əhalinin sosial müdafiəsinin təmin edilməsi həmişə olduğu kimi, yenə də Azərbaycan dövlətinin başlıca prioritetləri sırasındadır. Bunu növbəti ilin Milli Məclisin komitələrində və plenar iclaslarında ətraflı və geniş müzakirə olunduqdan sonra qəbul edilən dövlət büdcəsi bir daha təsdiqləyir.

Bunlarla yanaşı, makroiqtisadi sabitliyin qorunması və milli valyuta məzənnəsinin dayanıqlılığının artırılması, koronavirus pandemiyası ilə mübarizə, işğaldan azad edilmiş ərazilərimizdəki bərpa-quruculuq işləri və bir çox digər məsələlər də diqqət mərkəzindədir.

*Ardı 5-ci səh.*

## Pandemiyadan sosial-iqtisadi yüksəlişə

### İlham Əliyevin Quba səfəri bir daha təsdiq etdi ki, regionların inkişafında yeni mərhələ başlayır

Vətən müharibəsindəki möhtəşəm qələbə respublikamızın qarşısında yeni çağırışlar formalaşdırıb və bundan irəli gələrək işğaldan azad olunmuş ərazilərin bərpası milli prioritetə çevrilib.

Bununla yanaşı, regionların sosial-iqtisadi inkişafına dair öncədən müəyyən olunmuş proqramlarla qarşıya qoyulmuş vəzifələrin yerinə yetirilməsi də diqqət mərkəzindədir. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın dekabrın 6-da Qubaya etdikləri səfər bunu bir daha təsdiqlədi.



### Mövcud potensialdan səmərəli istifadə edilir

Xüsusilə qeyd edilməlidir ki, dövlət proqramları çərçivəsində nəzərdə tutulan layihələr pandemiya dövründə də vaxtında icra edilir. Bütün dünyanı çənginə almış koronavirus Azərbaycanda da müəyyən çətinliklərə yol açdı.

*Ardı 3-cü səh.*

## Bir vaxtlar hətta yolu olmayan regionlarda indi ixracyönlü məhsullar istehsal edilir

Məlumdur ki, ölkədə qeyri neft-qaz sektorunun təşəkkül tapması regionların sosial-iqtisadi inkişafı ilə birbaşa bağlıdır. Təkcə ilk regional inkişaf proqramının qəbul olunduğu 2004-cü ilin qeyri-neft sektorunun da inkişafının başlandığı dövrlə üst-üstə düşdüyünü xatırlamaq kifayətdir ki, bu bağlılığın gerçək olduğuna şübhə qalmasın.

Həmin dövrdən 17 ildən çox vaxt keçib və təbii ki, görülən işlər, həyata keçirilən tədbirlər sayəsində nə regionlarımız həmin bölgələrdir, nə də qeyri-neft sektoru həmin sahə.

*Bax: səh. 5*

# Heydər Əliyev Fondunun layihələri Həştərxanda yüksək qiymətləndirilir

Əvvəli 1-ci səh.

Söhbət zamanı ticarət dövriyyəsinin artırılması, ticarət və nəqliyyat-logistika sahələrində əlaqələrin genişləndirilməsi üçün yaxşı potensialın olduğu bildirildi. Heydər Əliyev Fondu tərəfindən Həştərxan vilayətində uğurla həyata keçirilən layihələr yüksək qiymətləndirildi.

Görüşdə bu gün açılışı olacaq Həştərxan İşgüzar Mərkəzinin əhəmiyyəti qeyd edildi, Bakı ilə Həştərxan arasında birbaşa müntəzəm hava əlaqəsinin yaradılmasının əməkdaşlığın genişlənməsi baxımından önəmi vurğulandı.

Söhbət zamanı ölkəmizin Rusiya Federasiyasının Həştərxan vilayəti ilə əməkdaşlığının perspektivləri ətrafında fikir mübadiləsi aparıldı və əlaqələrin bundan sonra da genişlənəcəyinə əminlik ifadə edildi.

Sonda Rusiya Federasiyası Həştərxan vilayətinin qubernatoru İqor Babuşkin dövlətimizin başçısına xatirə hədiyyəsi təqdim etdi.





# Prezident İlham Əliyev "TOTAL Energies" şirkətinin kəşfiyyat və hasilat üzrə prezidentini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 7-də "TOTAL Energies" şirkətinin kəşfiyyat və hasilat üzrə prezidenti Arnaud Breuillacı qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Arnaud Breuillacın fəaliyyətinin başa çatması qeyd edildi. Dövlətimizin başçısı onun ölkəmizlə TOTAL şirkəti arasında əməkdaşlığa töhfə verdiyini vurğuladı.

Arnaud Breuillac fəaliyyətinə verilən qiymətə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi.

Söhbət zamanı təxminən bir ildən sonra "Abşeron" yatağında hasil olunacaq birinci qazın ölkəmizdə sənayenin inkişafı və əhalinin artımı ilə bağlı qaza olan daxili tələbatın ödənilməsi, ixrac potensialının artırılması və yeni bazarlara çıxışın əldə edilməsi, Avropanın enerji təhlükəsizliyinin təmin olunması işinə xidmət edəcəyinə ümidvarlıq ifadə olundu.

Görüşdə ölkəmizlə "TOTAL Energies" şirkəti arasında əlaqələr, o cümlədən bərpaolunan enerji sahəsində əməkdaşlığın perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

## F.Ə.Adıgözəlovun Azərbaycan Respublikasının Dövlət Sığorta Kommersiya Şirkətinin sədri təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Fərhad Əsgər oğlu Adıgözəlov Azərbaycan Respublikasının Dövlət Sığorta Kommersiya Şirkətinin sədri təyin edilsin.

2. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 dekabr 2021-ci il*

# Milli Məclisin nümayəndə heyəti İƏT Parlament İttifaqının 16-cı Konfransında iştirak edəcək

Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti İslam Əməkdaşlığı Təşkilatı Parlament İttifaqının (İƏT Pİ) 16-cı Konfransında iştirak etmək üçün dekabrın 8-də Türkiyənin İstanbul şəhərinə səfər edəcək.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, nümayəndə heyətinin tərkibinə Milli Məclisin deputatı Ceyhun Məmmədov, parlament Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildirlər.

Milli Məclisin Sədrinin İƏT Pİ-nin 16-cı Konfransında çıxışı gözlənilir. Parlament sədrinin tədbirdə iştirak edən nümayəndə heyətləri rəhbərləri ilə bir sıra görüşləri də nəzərdə tutulub. Görüşlərdə təşkilat çərçivəsində əməkdaşlığın gələcək inkişaf istiqamətləri, parlamentlərarası əlaqələrin dərinləşməsi və tərəfləri maraqlandıran digər məsələlər ətrafında fikir mübadiləsi aparılacaq.

Səfər dekabrın 11-də başa çatacaq.

# İşsizlikdən sığorta ödənişi ilə bağlı qanunvericilik təkmilləşdirilir

Dekabrın 7-də Milli Məclisin Əmək və sosial siyasət komitəsinin iclası keçirilib. Komitə sədri Musa Quliyev bildirib ki, gündəliyə bəzi qanunlara dəyişikliklərlə bağlı üç məsələ daxil edilib.



İclasda parlament Aparatının Sosial qanunvericilik şöbəsinin müdiri Adil Vəliyev gündəlikdəki qanun layihələri barədə məlumat verib. Əvvəlcə, "İşsizlikdən sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə layihə birinci oxunuşda müzakirəyə çıxarılıb. Bildirilib ki, layihədə işsizlikdən sığorta ödənişi alan şəxslərin əhatə dairəsinin genişləndirilməsi, həmçinin sığorta ödənişinin alınması üçün 3 aylıq gözləmə müddətinin ləğv edilməsi ilə bağlı yeni müddəalar nəzərdə tutulub. Sənəddə eyni zamanda müddətli əmək müqaviləsi üzrə tələb edilən sığorta stajının azaldılması təklif olunub. Belə ki, qanunun müvafiq maddəsində nəzərdə tutulan halda sığorta hadisəsinin baş verdiyi tarixdən əvvəlki ardıcıl gələn 36 təqdim ayı ərzində müddətli əmək müqaviləsi üzrə ən azı 30 ay sığorta stajına malik olan əmək qabiliyyətli şəxslərə minimum sığorta ödənişi təyin olunacaq. Əvvəlki redaksiyada bu ödəniş 35 ay sığorta stajına görə verilirdi.

"Məşğulluq haqqında" qanunda dəyişiklik edilməsi barədə layihəyə dair (birinci oxunuş) məlumatda bildirilib ki, sənəddə mülkiyyətində kənd təsərrüfatına yararlı torpaq payı olub, digər məşğulluğu olmayan şəxslərin peşə hazırlığı kurslarına ödənişsiz cəlb edilməsi, həmçinin peşə hazırlığına cəlb olunduqları dövrdə təqaüd almaları, haqqı ödənilən ictimai işlərə, habelə özünüməşğulluğa cəlb olunmaları kimi aktiv məşğulluq tədbirlərini təsbit edən müddəalar irəli sürülüb.

Bildirilib ki, hər iki qanun layihəsi "İşsizlikdən sığorta fondunun 2021-ci il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2020-ci il 29 dekabr tarixli 235-VIQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli 1233 nömrəli fərmanının icrası çərçivəsində hazırlanıb.

Sonra Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi ikinci oxunuşda təqdim edilib. Diqqətə çatdırılıb ki, məcəlləyə yeni 539.1-1-ci maddənin əlavə edilməsi təklif olunur. Əlavədə bildirilir ki, əmək qanunvericiliyinin əmək müqaviləsinin bağlanması, dəyişdirilməsi və xitamının əsasları, məzuniyyət hüququnun həyata keçirilməsi, əmək və məzuniyyət haqlarının, ezamiyyə xərclərinin, müavinət və digər ödənişlərin ödənilməsi ilə bağlı tələblərinə əməl olunması barədə müvafiq icra hakimiyyəti orqanının icrası məcburi olan qərarlarının icra edilməməsinə görə vəzifəli şəxslər 1000 manat məbləğində, hüquqi şəxslər 2000 manat məbləğində cərimə edilirlər. Məcəllənin bir sıra maddələrində bəzi ifadələrin digərləri ilə əvəz olunması ilə bağlı düzəlişlər də nəzərdə tutulub.

Qeyd edilib ki, qanun layihəsi əmək münasibətləri zamanı işçilərin pozulmuş hüquqlarının bərpa edilməsi, işəgötürənlərin cərimə ödəmək əvəzinə, işçilərin hüquqlarını bərpa etməyə marağının yaranması məqsədilə hazırlanıb.

Komitə sədri Musa Quliyev bildirib ki, hər üç qanun layihəsinə təklif olunan dəyişikliklər vətəndaşın və işçinin sosial və əmək hüquqlarının daha yüksək səviyyədə qorunmasına xidmət edir.

İclasda çıxış edən komitə sədrinin müavini Məlahət İbrahimqızı, komitə üzvləri İlham Məmmədov, Jalə Əliyeva, Vüqar Bayramov, Arzu Nağıyev, Sevinc Hüseynova, Soltan Məmmədov, Aqil Məmmədov, Əziz Ələkbərov qanunlara edilən dəyişiklikləri müsbət dəyərləndiriblər, qeyd və təkliflərini söyləyiblər. Musa Quliyev deputatların səsləndirdikləri fikirlərə münasibətini bildirib.

Tədbirdə iştirak edən Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli qanun layihələri barədə fikirlərini açıqlayıb, deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirib.

Müzakirələrin sonunda "İşsizlikdən sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə və "Məşğulluq haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələri birinci oxunuşda, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi ikinci oxunuşda Milli Məclisin plenar iclasında baxılmaq üçün tövsiyə olunub.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Milli Məclisdə komitələrin birgə onlayn iclası keçirilib

Dekabrın 7-də Milli Məclisdə Hüquq siyasəti və dövlət quruculuğu komitəsi ilə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin birgə onlayn iclası keçirilib.




Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, iclasın gündəliyinə "Əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi sahəsində əməkdaşlıq və əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi məsələlərinə dair Dövlətlərarası Şuranın yaradılması haqqında" Sazişə və "2010-cu il 19 noyabr tarixli "Əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi sahəsində əməkdaşlıq və əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi məsələlərinə dair Dövlətlərarası Şuranın yaradılması haqqında Saziş"ə dəyişikliklər edilməsi haqqında" Protokola qoşulmaq barədə və "Əqli mülkiyyət sahəsində hüquq pozuntularının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Sazişin xüsusi rəylə təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Qanununun ləğv edilməsi haqqında" qanun layihəsi daxil edilib.

Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, iki komitənin birgə iclasının gündəliyinə çıxarılan məsələ əqli mülkiyyət hüququnun qorunması və mühafizəsi sahəsində əməkdaşlıq üzrə sazişlərin ratifikasiyası ilə əlaqədardır. Sazişlərin spesifikliyindən danışan Milli Məclis Sədrinin birinci müavini diqqətə çatdırıb ki, sənəddə sahə əməkdaşlıq orqanının yaradılması nəzərdə tutulub. Sazişə görə tərəflər əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi məsələlərinə dair Dövlətlərarası Şura yaradırlar və Şura öz fəaliyyətini bu sazişin ayrılmaz hissəsi olan müvafiq Əsasnamə əsasında həyata keçirir.

Qeyd olunub ki, Azərbaycan tərəfi sənədə müəyyən qeyd-şərtlə qoşulur. Azərbaycanın indiyədək beynəlxalq sənədləri imzalayarkən Ermənistanın torpaqlarımızı işğalı faktını xüsusi qeyd-şərt kimi irəli sürməsinin siyasi-hüquqi və tarixi əhəmiyyətini vurğulayan parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri hazırda təqdim olunan qeyd-şərtin ərazi bütövlüyü məsələsi ilə deyil, Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşması ilə bağlı olduğunu bildirib.

Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov çıxışında gündəliyə çıxarılan bir qanun layihəsinin bir saziş və bir protokol olmaqla iki beynəlxalq sənədin ratifikasiyasını və bir qanunun ləğv edilməsini nəzərdə tutmasından danışıb.

Bildirilib ki, bu beynəlxalq sənədlər 2010-cu il noyabrın 19-da Sankt-Peterburq şəhərində imzalanmış "Əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi sahəsində əməkdaşlıq və əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi məsələlərinə dair Dövlətlərarası Şuranın yaradılması haqqında" Saziş və 2017-ci il mayın 26-da Kazan şəhərində imzalanmış "2010-cu il 19 noyabr tarixli "Əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi sahəsində əməkdaşlıq və əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi məsələlərinə dair Dövlətlərarası Şuranın yaradılması haqqında Saziş"ə dəyişikliklər edilməsi haqqında" Protokoldur.

Sözügedən saziş və protokolla bağlı tarixi ardıcıllıq üzrə ətraflı izahat verən komitə sədri Azərbaycanın bu sənədlərə qoşulmasını dövrün çağırışları kontekstində dəyərləndirib.

Səməd Seyidov təqdim olunan sazişlə bağlı Azərbaycanın müvafiq qeyd-şərtinin keyfiyyətcə yeni məzmun daşıdığını, Vətən müharibəsindəki Zəfərimizin yaratdığı reallıqlara və çağırışlara tam uyğun olduğunu bildirib. Belə ki, Azərbaycanın qeyd-şərtinə görə bu sazişin müddəaları münaqişənin nəticələri tam aradan qaldırılana və Ermənistanla Azərbaycan arasında münasibətlər normallaşana qədər Azərbaycan Respublikası tərəfindən Ermənistan Respublikasına münasibətdə tətbiq edilməyəcək.

Qeyd edilib ki, qanun layihəsində 1998-ci il 4 dekabr tarixli "Əqli mülkiyyət sahəsində hüquq pozuntularının qarşısının alınması sahəsində əməkdaşlıq haqqında Sazişin xüsusi rəylə təsdiq edilməsi barədə" Qanunun ləğvi də 2010-cu il noyabrın 19-da Sankt-Peterburq şəhərində imzalanmış "Əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi sahəsində əməkdaşlıq və əqli mülkiyyətin hüquqi qorunması və mühafizəsi məsələlərinə dair Dövlətlərarası Şuranın yaradılması haqqında" Sazişin müddəalarından irəli gəlir.

Deputatlar Asim Mollazadə və Elman Nəsirov iclasda çıxış edərək qanun layihəsi ilə bağlı fikirlərini və müsbət rəylərini səsləndiriblər. Onlar sazişin Azərbaycanın maraqlarına tam cavab verdiyini qeyd ediblər və sənədlə bağlı irəli sürülən qeyd-şərtdə Vətən müharibəsində Zəfərimizin reallıqlarının əks olunmasını yüksək dəyərləndiriblər.

Müzakirələrin sonunda sənəd baxılması üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsi sədrinin müavini Qüdrət Həsənquliyev, Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi sədrinin müavini Sevinc Fətəliyeva, deputatlar Əminə Ağazadə, Sabir Hacıyev, Nurlan Həsənov, Vüqar İskəndərov, Tahir Kərimli, Azay Quliyev, Cəbi Quliyev, Bəhruz Məhərrəmov, Elşən Musayev, Madər Musayev, Nizami Səfərov, Sahib Alıyev, Nigar Arpadarai, Cavanşir Feyziyev, Tural Gəncəliyev, Azər Kərimli, Nəsib Məhəməliyev, Ramin Məmmədov, Sevil Mikayılova, Rasim Musabəyov, Sabir Rüstəmxanlı və digər rəsmi şəxslər iştirak ediblər.

# MƏN MÜHARİBƏ VETERANIYAM

## Amma müqəddəsliyi adiləşdirmək, kiçiltmək kimsəyə başucalığı gətirməz!

*Əvvəli 1-ci səh.*

**Tam məsuliyyətlə deyirəm: bu gün heç kimin Azərbaycan iqtidarının və ölkə vətəndaşlarının şəhid övladlarına, şəhid ailələrinə, müharibə əlillərinə və iştirakçılarına diqqət və qayğısından, isti münasibətindən, köməyindən narazı qalmağa haqqı çatmır!**

**Hamı əl-ələ verərək nə mümkünsə edir!**

Bunu "Yaşat" fondunun yaradılması və elliklə maliyyələşdirilməsi də açıq-aşkar göstərir!

AMMA...

Kaş ki, bu "əmma" olmayaydı!...

❖ ❖ ❖

Yazının əvvəlinə qayıdırıq...

*Bu gün bütün müharibə veteranları, əlilləri (son vaxtlar dilimizə türk qardaşlarımızdan keçərək əsl mənasında işlənməsə də, "qazi" sözü də daxil olub), qaziləri qürurla, ürəklə, fəxrlə özlərinə "veteran", "qazi" deyirlər!*

**Çünki Müzəffər Ali Baş Komandan İlham Əliyev dilimizi uzun etdi!**

**44 günlük Zəfər müharibəsində 27 illik işğala son qoydu!**

**Əsl möcüzə göstərərək bizi qalib millətə, qalib dövlətə və qalib xalqa çevirdi!**

**Şəhidlərimizin də, əlillərimizin də qisasını aldı!**

**Qürur və mənliyimizi özümüzə qaytardı!**

*Əslində, vətənə xidmət etməkdən, vətəni qorumaqdan, torpaqları azad etmək uğrunda döyüşlərdə qan axıtmaqdan, şəhadətə qovuşmaqdan şərəfli nə ola bilər?!*

Mən müharibə veteranının da, şəhid ailələrinin də, əlillərin də fəxarətini, bəzən hündürdən, qürurla danışmaqlarını başa düşürəm.

Həm də qəbul edirəm!

*Amma bu fəxarətli və şərəfli adlarla (nə qədər çətin olsa da, deməyə məcburam) alver etmək istəklərini, sonsuz tələb və yerinə yetirilməsi mümkün olmayan iddialarla müxtəlif ünvanların bezdirilməsini, özünü qanundan yüksək tutmaq cəhdlərini anlaya bilmirəm!*

Heç bu şərəfli adı daşıyanlara da belə davranış və ədalətsizliyi layiq görmürəm!

Hələ nə qədər yalandan bu addan istifadə edənlərin, qoltuq ağacları ilə başqalarına, hətta polis nəfərlərinə hücum çəkənlərin mövcudluğunu, əlil adı ilə torpaq alverinə qoşularaq özlərinə "biznes" quranların varlığını və sonradan ifşa edildiyini demirəm.

Hər dəfə mətbuatda bu tipli xəbərlərə rast gələndə sarsılıram, özümü qoymağa yer tapmıram.

I Qarabağ müharibəsində şəhid gedən igid övladlarımız, dostlarım, doğmalarım, müharibə dövrü yazılarımın qəhrəmanları yadıma düşür.

Çoxu qəhrəmanlıqla döyüşərək şəhid oldular!

Amma həmin dövrdə onlara lazımi qiymət verən tapılmadı, ailələrinə zəruri kömək göstərmək mümkün olmadı.

Heç onların ailələrinin səsi də çıxmadı, çıxanda isə həmin səsi eşidən, yardım üçün əl uzadan tapılmadı.

Sonradan, dövlət özünə gələn dövrdən başlayaraq mövcud imkanlar daxilində zəruri yardımlar göstərildi, ev, pensiya, minik maşınları verildi.

*İndi isə Bakıda qara plyonkalı, nömrəsi çıxarılmış, yüksək sürətlə şütüyən əlil maşınlarını görəndə pərişan oluram.*

*Belələri arasında avtoşluq edənlər, polisə tabe olmayanlar da mövcuddur!*

*Onlar imtiyazlarını qabardaraq yol hərəkəti qaydalarını pozur, yol polisini isə eşitmək istəmirlər!*

*Müalicə müəssisələrində ərköyünlük göstərənlərin, səs-küy salanların sayı da az deyil!*

**Axı qanun hamı üçün eynidir və hamının təhlükəsizliyinə, müdafiəsinə, hüquqlarının qorunmasına, rahatlığına xidmət edir!**

**Belə ərköyünlərə ayrıca, xüsusi qanunmu yazılmalıdır?**

Axı biz hamımız - dövlət də, polis də, həkim də, lap sıravi vətəndaş da sizləri sevirik, hörmət edirik, igidliyinizi qiymətləndiririk!

Bəs sizlərin bir qismi niyə belə addım atır?

Niyə özlərini biz istəyən səviyyədə, yüksəklikdə saxlamırlar?

*Hətta biz gözləyirik ki, siz özünüz (bu istiqamətdə fəaliyyət göstərən kifayət qədər təşkilatlar da var) belələrinə qarşı dözümsüz olasınız, hərəkətlərinin yanlışlığını onlara anladasınız!*

**Şəhid də, əlil də, veteran da əsl qiymətini bu gün alır!**

**Onlara layiq olduqları kömək indi göstərilir!**

**Əməllərinin, fədakarlıqlarının əsl dəyəri indi verilir!**

Gəlin keçmişdə qalan soyuq münasibətləri, qayğısızlıq illərini də unutmayaq!

*Vətən hamımızındır!*

*Hərə ona bacardığı kimi xidmət göstərir.*

Kimin taleyinə, qismətinə nə düşübsə, buna görə Vətənə minnət qoymaq düz deyil!

❖ ❖ ❖

İkinci Qarabağ uğrunda müharibədə hər bir azərbaycanlı kişisi iştirak etməyi özünə şərəf bilirdi.

Bunu müharibə davam edən müddətdə Hərbi Səfərbərlik üzrə Dövlət Xidmətinin yerli şöbələrinə gedərək döyüşlərdə könüllü iştirak etmək istəyənlərin say çoxluğu da sübut edirdi.

Bir qismi öz istəyinə nail oldu, erməni işğalçılarına qarşı döyüşlərdə iştirak etdi.

Lakin cəmi 44 gün davam edən Zəfər müharibəsində kütləvi səfərbərliyə ehtiyac olmadı, ərizə verənlərin çoxu orduya cəlb edilmədi.

Bu gün bəxti gətirərək torpağın işğaldan azad edilməsi uğrunda döyüşlərdə iştirak edənlər müharibəyə getmək üçün növbədə qalanlardan niyə özlərini yüksək tutmalıdırlar?!

Yaxud bunu əllərində bayraq edərək dövlətin onlara verdiyi xüsusi imtiyazlardan əlavə nəsə tələb etməli, yaxud xoşagəlməz addımları özlərinə rəva görməlidirlər?!

**Vətənə xidmətə, vətən qarşısında övlad borcunu yerinə yetirməyə görə qanundan və etikadan kənar nəsə etmək, yaxud kiməsə minnət qoymaq da anlaşılan deyil!**

MƏN MÜHARİBƏ VETERANIYAM!

*Təmkinlə, qürurla söylənən bu söz sahibinə rəğbət və məhəbbət doğurur!*

*Çünki bunu söyləyən insan başqa təmənna güdmür, Qarabağın azadlığı uğrunda savaşın iştirakçısı olduğundan özünü xoşbəxt saydığını diqqətə çatdırmaq istəyir.*

MƏN MÜHARİBƏ VETERANIYAM!

*Ucadan, təhdidlə, hikkəli şəkildə söylənən eyni sözlərin arxasında isə başqa bir iddia dayanır!*

*Yəni "Mən müharibədə can qoymuşam, qan tökmüşəm, torpağı azad etmişəm!"*

Deməli:

**Hamı məni eşitməli, tələblərimi dərhal yerinə yetirməli, güzəştə getməli, bütün addımlarımı, əməllərimi bəyənərək qəbul etməlidir!**

**Mənə yox demək, hərəkətlərimi bəyənməmək, hətta qanunu pozduğum halda belə cəza vermək olmaz!**

Belə mövqe sahibləri isə bu adı vicdan və məsuliyyətlə daşıyanları hamımızın müqəddəs saydığımız yüksəklikdən aşağı salır, boynumuza minnət qoyaraq özlərini hamıdan və qanundan üstün tutmağa çalışır.

Onlara göstərilən diqqət və müxtəlif imtiyazlardan kifayətlənməyərək yeni tələblər irəli sürürlər...

**Əslində, Vətən bizə yox, biz hamımız Vətənə borcluyuq!**

**Vətəni övlad kimi sevmək, qorumaq, bütün çətinliklərinin, problemlərinin həlli yolunda canla-başla iştirak etmək bir azərbaycanlı kimi müqəddəs vəzifəmiz sayılır!**

**Vətən bizə minnət qoya bilər, biz isə Vətənə yox!**

*Vətən ərköyünləri, bir edib beş danışanları sevmir!*

*Heç kəsin də xidmətini əvəzsiz qoymur!*

**Gəlin Vətəni də əziz tutaq, müharibə veteranı, müharibə əlili, şəhid ailəsi, qazi adını da daim ucalıqda saxlayaq.**

**Müqəddəsliyi adiləşdirmək, kiçiltmək kimsəyə başucalığı gətirməz!**

**Bəxtiyar SADIQOV**

# Regionun güc və söz sahibi

## İlham Əliyevin qlobal təşəbbüsləri regionda yeni əməkdaşlıq platformalarının yaranmasını şərtləndirir

*Əvvəli 1-ci səh.*

Təklif olunur ki, Azərbaycan, Gürcüstan, Ermənistan, Türkiyə, Rusiya və İran başda olmaqla, Xəzərin şərqindəki ölkələri də əlavə etməklə regional əməkdaşlıq daha da inkişaf etdirilsin. Bunun üçün fürsətlər və infrastruktur da mövcuddur. Xüsusilə Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı-Tbilisi-Ceyhan boru kəməri və "Cənub qaz dəhlizi", TANAP, TAP kimi layihələr bu baxımdan hazırlanmış layihələrdir. Bunlar bir ölkəyə aid deyil, həm Qafqazın, həm Avropanın, həm də Orta Asiyanın birlikdə istifadə edəcəyi layihələrdir.

Yeni əməkdaşlıq formatının əhəmiyyətindən danışan Prezident İlham Əliyev sentyabr ayında Türkiyənin "Anadolu" agentliyinə müsahibəsində bu barədə məlumat vermişdi. Prezident bildirmişdi ki, irəli sürülən təklif Türkiyə, Rusiya və İran tərəfindən dəstəklənib. Ancaq Ermənistan hələ ki, buna razılıq verməyib.

Noyabrın 26-da Soçidə keçirilən üçtərəfli görüşdə qəbul edilən sənəddə göstərilənlər isə Ermənistanın da artıq bu platformanın yaradılmasına müsbət yanaşdığını söyləməyə əsas verir.

Noyabrın 28-də Aşqabadda keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının Zirvə Görüşü çərçivəsində Azərbaycan və İran prezidentləri arasında baş tutan səmimi görüşdə müzakirə edilən məsələlər, imzalanan qaz sazişi də deməyə əsas verir ki, İranın rəhbərliyi yeni əməkdaşlıq platformasının yaradılmasında maraqlıdır. Əgər qonşu Gürcüstanın da razılığı olarsa, 3+3 formatının tezliklə reallaşacağı şübhə doğurmur.

### Zəngəzur dəhlizi - Cənub-Şərqi və Mərkəzi Asiya ilə Avropanın əlaqələndirilməsi

Göründüyü kimi, artıq bölgəmizə maraq getdikcə artmaqdadır. Çünki Zəngəzur dəhlizi də istifadəyə verildikdən sonra Azərbaycan Avrasiya məkanında yeni nəqliyyat arteriyası yaratmış olacaq.

Zəngəzur dəhlizi Azərbaycan üçün yalnız siyasi əhəmiyyət kəsb etmir. Bu dəhliz ilk növbədə daxili iqtisadi proseslər baxımından yüksək əhəmiyyətə malikdir. Naxçıvanla birbaşa əlaqə imkanı ölkə daxilində iqtisadi inteqrasiyanı gücləndirəcək, Naxçıvanda sənayeləşməni sürətləndirəcək. Digər tərəfdən isə Azərbaycanın işğaldan azad olunmuş ərazilərinin sosial-iqtisadi inkişafına təkan verəcək. Dəhliz boyu infrastrukturun işləməsi həm də əlavə iş yerlərinin açılması, bölgənin inkişafı deməkdir.

Dəhlizin üstünlüyü təkcə Naxçıvanla Azərbaycanın qalan bölgələri arasında nəqliyyat imkanlarının açılması deyil, bütövlükdə Xəzər və Aralıq dənizi hövzələrinin, daha geniş mənada isə Cənub-Şərqi və Mərkəzi Asiya ilə Avropanın əlaqələndirilməsidir.

Dəhlizin açılması bölgənin və eləcə də türkdilli ölkələrin iqtisadiyyatına təsir göstərəcək. Qədim Azərbaycan torpağı ilk növbədə türk dünyasını birləşdirən özək rolunu oynayacaq. İlham Əliyevin söylədiyi kimi, türk dünyası uzun illərdən sonra yenidən Zəngəzur dəhlizi vasitəsi ilə birləşəcək. "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin əhəmiyyətinin artmasına şərait yaranacaq. Bununla da bölgədə ticarət artacaq, əhalinin yaşayış səviyyəsində ciddi irəliləyişlər müşahidə olunacaq.

Zəngəzur dəhlizi Azərbaycan, Ermənistan, Türkiyə, Rusiya və İranla yanaşı, Asiya-Sakit okean regionu ölkələrinə də böyük fayda verə bilər. Ən əsası isə odur ki, dəhliz regional əməkdaşlıq qarşısında illərdir dayanan maneələrin aradan qaldırılmasına xidmət edəcək.

### Postmüharibə dövrü yeni imkanlar açır

Göründüyü kimi, postmüharibə dövrü doğrudan da, yeni imkanlar açır, əməkdaşlıq, qarşılıqlı ticarət, kommunikasiyaların açılması, yeni nəqliyyat dəhlizlərinin yaradılması üçün çox nadir imkanlar yaradır.

Əgər təkcə Zəngəzur dəhlizinə fikir versək görərik ki, bu, Prezidentin söylədiyi kimi, yalnız Rusiya, Azərbaycan, Türkiyə, İran və Ermənistanın maraqlarına cavab vermir. Digər qonşu ölkələrin də maraqlarına cavab verən bu proseslə Avrasiyanın yeni bir nəqliyyat damarı açıla bilər.

Elə Aşqabadda keçirilən İƏT-in Zirvə görüşündə də Prezident İlham Əliyevin irəli sürdüyü təkliflər bu istiqamətdə idi. Dövlət başçısı dedi ki, Zəngəzur dəhlizi artıq reallığa çevrilir. Bu yeni nəqliyyat infrastrukturu "Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinin önəmli hissəsinə çevriləcək. İlham Əliyev əmin olduğunu bildirdi ki, İƏT-ə üzv ölkələr bu dəhlizdən istifadə edəcəklər.

Bir sözlə, bütün bunlarla Prezident İlham Əliyev regionda yaranmış yeni reallıqlara uyğun əməkdaşlıq təkliflərinə hər zaman açıq lider olduğunu bir daha təsdiqləyir. Məhz bu təklifləri, verdiyi sözə sadiqliyi ilə Azərbaycan Prezidenti ölkəmizi dünyada ən etibarlı tərəfdaşa çevirib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Pandemiyadan sosial-iqtisadi yüksəlişə

## İlham Əliyevin Quba səfəri bir daha təsdiq etdi ki, regionların inkişafında yeni mərhələ başlayır

*Əvvəli 1-ci səh.*

Lakin Prezident İlham Əliyevin təşəbbüsləri, göstəriş və tapşırıqları, fərman və sərəncamları, ən əsası şəxsi nəzarəti ilə ölkəmizdə həyata keçirilən tədbirlərin nəticəsi olaraq infeksiyanın daha ciddi fəsadlara yol açmasının qarşısı uğurla alındı. Belə bir həssas dönəmdə dövlətimizin təqdir olunan başqa bir addımı isə əvvəldən nəzərdə tutulmuş layihələrin təxirə salınmamasıdır. Bu baxımdan Quba rayonunda görülən işlər pandemiya şəraitində də qazanılan iqtisadi uğurlardan xəbər verir.

Qeyd edək ki, respublikamızda yürüdülən məqsədyönlü siyasət, sərbəst biznes mühitinin bərqərar olması işgüzar fəallığın yüksəlməsini, qeyri-neft sektorunun artımını təmin edib. Bu istiqamətdə həyata keçirilən dövlət dəstəyi tədbirləri də öz uğurlu nəticəsini verir, sahibkarlığın inkişafı stimullaşdırılır. Bütün bunlar nəticə etibarilə məhsul istehsalının artımı, yeni iş yerlərinin açılması ilə müşayiət olunmaqdadır.

Prezident İlham Əliyevin Qubaya səfəri zamanı açılışı olan "Quba ABAD Factory" qablaşdırma vasitələrinin istehsalı müəssisəsi öz fəaliyyəti ilə yerli və ətraf rayonlardan olan sahibkarların tələbatını ödəyəcək. Müəssisədə kartondan müxtəlif qablaşdırma vasitələri, kağız və etiketlərin istehsalı, promo məhsulların hazırlanması, eyni zamanda tullantı kağızların preslənməsi nəzərdə tutulur. "ABAD Factory" bir neçə ildir qubalı kiçik sahibkarlara qida istehsalı müəssisəsi kimi tanış idisə, artıq həm də qablaşdırma vasitələrinin istehsalı müəssisəsi kimi onlara yardımçı olacaq. Müəssisənin açılışı ilə ilkin mərhələdə 20, sonrakı mərhələdə isə 50 nəfərin işlə təmin olunması reallaşacaq.

Bu müəssisənin yaradılması həm də onu göstərir ki, Qubada mövcud potensialdan səmərəli istifadə edilir.



### İnkişafın təcəssümü olan müasir infrastruktur

İnkişafın, yüksəlişin təməllərindən biri standartlara cavab verən infrastrukturdur. Əgər elektrik enerjisinin verilişi və digər kommunal xidmətlərin göstərilməsi lazımi səviyyədə təmin edilməsə, avtomobil yolları pis vəziyyətdə olsa, bank xidmətlərinin səviyyəsi yüksəlməsə, hotellər, xəstəxana və idman qurğuları olmasa, heç bir inkişafdan danışmaq olmaz. Dayanıqlı inkişaf ilk növbədə infrastrukturun yeniləşməsindən, bu sahədə beynəlxalq və müasir standartların tətbiqindən, qabaqcıl biliklərin, texnologiyaların mənimsənilməsindən keçir. Təsadüfi deyil ki, Prezident İlham Əliyevin inkişaf siyasətinin mühüm tərəflərindən biri bütün istiqamətlər üzrə infrastrukturun yaradılması və inkişaf etdirilməsidir. Dövlət başçısı yüksəlişin, tərəqqinin yolunu digər amillərlə yanaşı, infrastrukturun daim yenilənməsində və müasirləşməsində görür və bu sahədə əməli tədbirlərin həyata keçirilməsini daim önə çəkir.

Ölkənin bütün rayonları kimi, Qubada da son illər böyük iqtisadi, sosial və infrastruktur layihələri həyata keçirilib. Regionların sosial iqtisadi inkişafı üzrə dövlət proqramları çərçivəsində bu rayonun da inkişafı təmin edilib. Prezident İlham Əliyevin Qubaya səfəri həm də onu göstərdi ki, həm regionların inkişafına töhfə verən, həm də quruculuğun tərənnümü olan infrastruktur layihələrinin icrası uğurla davam etdirilir. Məlum oldu ki, Quba Olimpiya İdman Kompleksində yenidənqurma, əsaslı təmir və tikinti işlərindən sonra obyektin bazasında Quba İstirahət, İdman, Təlim və Tədris Kompleksi yaradılıb. Layihənin özünəməxsusluğu ondan ibarətdir ki, burada istirahət, idman, təlim və tədris bir məkanda cəmləşib. Həmçinin bu cür komplekslərin yaradılması regionlarda əmək bazarına yeni iştirakçıların daxil olmasına ciddi təkan verir. Bu kompleks həm də yerli sakinlərin məşğulluğunun təmin edilməsində mühüm rol oynayacaq. Belə ki, burada 200-250 işçinin çalışacağı nəzərdə tutulur ki, onların da mütləq əksəriyyətini yerli sakinlər təşkil edəcək. Kompleksin təlim və tədris hissəsində maliyyə sektoru prioritet olmaqla, bank, sığorta və kapital bazarları iştirakçıları üçün məşğələlər keçiriləcək.

Prezident İlham Əliyevin iştirakı ilə açılışı olan Quba-Qonaqkənd avtomobil yolu isə 70 minə yaxın rayon sakininin rahat gediş-gəlişini təmin edir. Bu yol uzun illər əsaslı təmir olunmadığı üçün hərəkət hissəsində qabarmalar, çalalar əmələ gəlmişdi. Bu isə yolda nəqliyyatın hərəkətini çətinləşdirirdi. Yolun yenidən qurulması əhalinin tədarük etdiyi kənd təsərrüfatı məhsullarını, meyvə-tərəvəzi qısa vaxtda istədikləri ünvana çatdırmağa imkan yaradacaq, həmçinin turizmin inkişafını daha da sürətləndirəcək. "Bura çox gözəl turizm zonasıdır. Burada yol olmadığı üçün turist də gəlmirdi. Əminəm ki, indi bu gözəl mənzərəli yerlərdə çox gözəl istirahət zonaları, hotellər, ictimai yerlər yaradılacaq. Yəni Qubanın bu hissəsi canlanacaq. Buna şübhəm yoxdur", - deyə Prezident İlham Əliyev kənd sakinləri ilə görüşdə bildirib.

### Heydər Əliyev Fondunun ərməğanı

Qubanın Birinci Nügədi kəndindəki 1 nömrəli tam orta məktəbin yeni binası isə Heydər Əliyev Fondu tərəfindən inşa olunub. Səfər zamanı Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva bu məktəbdə yaradılan şəraitlə də tanış oldular.

Məktəbin 1971-ci ildə inşa olunmuş əvvəlki binası son illər tam yararsız vəziyyətə düşmüşdü. Bundan sonra şagirdlər yeni binada təhsillərini davam etdirəcəklər. Qeyd edək ki, Birinci Nügədi kənd orta məktəbin şagirdləri indiyədək müxtəlif fənn olimpiadalarında müvəffəqiyyət qazanıb, məzunlar yüksək balla ali məktəblərə qəbul olublar. Təkcə son 4 ildə məktəbin 5 şagirdi 600-dən çox balla tələbə adını qazanıb.

Müasir standartlara cavab verən yeni məktəbin inşası keyfiyyətli və bərabərhüquqlu təhsil imkanının yaradılması deməkdir. Eyni zamanda müasir infrastruktur tədrisin keyfiyyətinə birbaşa müsbət təsir göstərən amillərdəndir.

Prezident İlham Əliyevin Qubaya səfəri həm də respublikamızdakı sarsılmaz xalq-iqtidar birliyinin növbəti təsdiqi kimi yadda qaldı. Qonaqkənddə Mədəniyyət evi ilə tanışlıqdan sonra qəsəbə sakinləri ilə rəsmiyyətdən uzaq qarşılıqlı səmimi dialoq şəraitində keçən görüş, sakinlərin görülən işlərə görə minnətdarlıqları, Vətən müharibəsindəki qələbəyə görə Prezident İlham Əliyevin alqışlamaları hər şeydən öncə qubalıların ölkə rəhbəri ətrafında sıx birləşmələrinin, Heydər Əliyev ideyalarına sədaqətlərinin növbəti dəfə təcəssümü idi.

Son ayların reallıqlarından biri odur ki, respublikamızda pandemiyanın yaratdığı çətinliklər artıq geridə qalmaqdadır. Bu baxımdan Prezident İlham Əliyevin Quba səfəri bir daha təsdiq etdi ki, regionların inkişafında yeni mərhələ başlayır.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## İlham Əliyevin Qubadan səsləndirdiyi bəyanat ermənilərin təşvişə saldı:

# "Qarabağ müharibəsindəki kabusu yenidən yaşamaq istəmirik"

*Əvvəli 1-ci səh.*

Ermənistan hakimiyyəti bu məsələni uzatmaqla məhvini qaçılmaz edir. Zəngəzur dəhlizi Ermənistanın xilası olacaq. Üçtərəfli Bəyanatın 9-cu bəndində göstərilir ki, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Bəyanatın bu bəndi Zəngəzur dəhlizinin reallaşması istiqamətində hüquqi zəmin yaradır. Yəni Ermənistan bu dəhlizin açılması üçün üzərinə götürdüyü öhdəliyi yerinə yetirməlidir. Əgər bu, baş verməsə, Azərbaycan yenə güc tətbiq etmək məcburiyyətində qalacaq".

### "Övladlarıma, mənə müharibə lazım deyil. Boş yerə gənclərimiz həlak olmasınlar"

Ermənistanın "4rd.am" saytının müxbiri Levon Naronyan sosial şəbəkədə Prezident İlham Əliyevin son çıxışının yer aldığı paylaşıma münasibət bildirərək Azərbaycanın mütləq Zəngəzura qayıdacağını deyir: "Ötən həftə Zəngəzurdaydıq. İnsanlarla söhbətləri, eləcə də Zəngəzur dəhlizi ətrafındakı mövcud xəbərləri nəzərə alaraq deyə bilərik ki, Zəngəzur bu anda regionun geosiyasi mərkəzidir. Burada güclü dövlətlərin maraqları kəsişir. Bu maraqlar arasında hələlik balans qurulmayıb. İki əsas tərəf bu anda Zəngəzur üçün mübarizə aparır. Birincisi (Türkiyə, Azərbaycan və onların müttəfiqləri) dəhlizin Zəngəzurdan keçməsini tələb edir, ikinci tərəf isə (bəzi Avropa dövlətləri) dəhlizə qarşıdır. Amma ölkənin xilası naminə sakinlər deyirlər ki, dəhlizin işə salınması onlara yeni iş imkanları yaradacaq. Yoxsulluq onları çox yorub. Ermənistan rəhbərliyi bu məsələnin reallaşmasına maneə yaratsa da, onlar inanırlar ki, Azərbaycan dəhlizin işə salınmasını təmin edəcək".

Aşot Simonyan adlı "İnstaqram" istifadəçisi İlham Əliyevin Zəngəzurla bağlı bəyanatının yer aldığı paylaşıma belə şərh verib: "İllər öncə Əliyev "erməni əsgəri ölmək istəmirsə, Qarabağda nə işi var" sözünə 44 günlük müharibədə əməl etdi. Bu gün Zəngəzur dəhlizi ilə bağlı son çıxışını izlədim, dəhşətə gəldim. Övladlarıma, mənə müharibə lazım deyil. Boş yerə gənclərimiz həlak olmasınlar. Paşinyan xalqını, dövlətini yeni müharibəyə, ölüm-itimli günlərə sürükləməsin. Qarabağ müharibəsindəki kabusu yenidən yaşamaq istəmirik".

### Azərbaycan seçim üçün Ermənistanın siyasi rəhbərliyinə şans verir

Göründüyü kimi, Zəngəzur dəhlizinin işə salınması, sülh müqaviləsinin imzalanması prosesini ləngitdiyinə görə məsuliyyət də birbaşa Ermənistanın və onun baş nazirinin üzərinə düşür.

Bu faktdır ki, Ermənistanın siyasi-diplomatik başbilənləri müasir geosiyasi proseslərin sürətli yeniləşməsi qarşısında reallığı qəbul etməkdə acizdirlər. Bu səbəbdən də hələlik rəsmi İrəvan heç bir yekun qərar qəbul edə bilmir. Belə vəziyyət öz növbəsində sürətlə Ermənistanın əleyhinə işləyərək onun üzləşdiyi problemlərin miqyasını daha da dərinləşdirir. Ekspertlər hesab edirlər ki, yaxın zamanda Ermənistan rəhbərliyi Zəngəzur dəhlizinin işə salınmasında, regionda davamlı sülhün və sabitliyin təmin olunmasında əməli addımlar atmasa, onda Azərbaycanın İrəvan üçün İkinci Qarabağ müharibəsi dərslərini təkrarlaması qaçılmaz olacaq.

Beləliklə, Azərbaycan seçim üçün Ermənistanın siyasi rəhbərliyinə şans verir. İrəvanın təcrid vəziyyətdə qalaraq inkişaf etməsi mümkünsüzdür və ötən zaman bunu çox aydın göstərib. Bütün baş verənlərə baxmayaraq Azərbaycan istənilən halda Zəngəzur dəhlizinin işə düşməsinə nail olacaq. Bu, kimsənin müqavimət göstərə bilməyəcəyi qarşısıalınmaz prosesdir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# YAP və AK Parti sədrlərinin müavinləri İstanbulda birgə mətbuat konfransı keçiriblər





Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyəyə səfəri davam edir. YAP nümayəndə heyətinə Milli Məclisin deputatı Ramil Həsən daxildir.



AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində dekabrın 7-də YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov və Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin birinci müavini Numan Kurtulmuş birgə mətbuat konfransı keçiriblər.

Qonaqları və tədbir iştirakçılarını salamlayan AK Parti Sədrinin birinci müavini Numan Kurtulmuş Azərbaycan nümayəndə heyətini bir daha Türkiyədə görməkdən məmnunluq hissi duyduğunu bildirib. Ölkəmizin Ümummilli Lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" tezisini xatırladan AK Parti Sədrinin birinci müavini deyib: "Bir millət, iki dövlət" tezisi çərçivəsində Türkiyə ilə Azərbaycan arasındakı dostluq və qardaşlıq illər keçdikcə daha da dərinləşib, güclənib. Azərbaycanın Qarabağı işğaldan azad etdiyi 44 günlük müharibə zamanı Türkiyənin həm dövlət, həm də millət olaraq azərbaycanlı qardaşlarımıza verdiyi dəstək və sonrakı əməkdaşlığımızla Türkiyə-Azərbaycan münasibətləri yeni müstəviyə qədəm qoyub. Bu çərçivədə müharibədən sonrakı dövr ərzində Azərbaycanın azad edilən Qarabağ bölgəsinin abadlaşdırılması, yenidən qurulması yolunda Türkiyə bütün gücü ilə Azərbaycanın yanındadır. Həm infrastrukturun yenilənməsi, həm də oradakı kənd təsərrüfatı sahəsində əməkdaşlığın inkişafı üçün işlərimiz ciddi şəkildə davam edir. Xüsusilə iki ölkə liderinin imzaladığı Şuşa Bəyannaməsindən sonra ölkələrimiz arasındakı münasibətlərdə yeni dövr başladığı kimi, Qafqazda da yeni sülh perspektivi meydana gəlib. Uzun zaman davam edən işğala son qoyulması və beynəlxalq hüquqdan irəli gələrək Azərbaycanın Qarabağı işğaldan azad etmək istiqamətində keçirdiyi əməliyyat Zəfərlə nəticələndikdən sonra yeni dövrün başladığını hamımız görürük. Bu dövrün bundan sonrakı əsası Qafqazda sülhün bərqərar olmasıdır. Bunun üçün də Türkiyə, Azərbaycan, Rusiya, İran, Ermənistan və Gürcüstan bu bölgənin altı ölkəsi olaraq ortaq məsələlərini birlikdə həll etmək iradəsini ortaya qoyması Qafqazda yeni sülh dövrünün başlaması üçün vacib addımdır. Bu addımın atıla bilməsi üçün Türkiyə ilə Azərbaycan münasibətlərini sürətlə inkişaf etdirir. Bu çərçivədə hər sahədə olduğu kimi, dövlətlər və millətlər arasındakı münasibətləri daha da dərinləşdirmək istiqamətində yolumuza davam edirik. Yenə bu çərçivədə hər iki ölkənin iqtidar - Yeni Azərbaycan və Ədalət və İnkişaf partiyaları arasında çox güclü əlaqələr qurulub, bu münasibətlər iki dövlətin tək millət olaraq irəliyə doğru addımlamasında təkanverici qüvvə olacaq".

Pandemiya şərtlərinə baxmayaraq, iki iqtidar partiya arasında qarşılıqlı görüşlərin keçirildiyini, səfərlərin təşkil olunduğunu xatırladan N.Kurtulmuş bildirib: "Bundan sonrakı dövrdə ölkələrimiz arasındakı əlaqələri iki güclü siyasi partiyanın və iki güclü siyasi liderin iradəsi ilə davam etdirəcəyik. Partiyalarımızın bu nümunəvi əlaqələri iki ölkə arasında münasibətlərin təzahürüdür. Ümid edirik ki, türk dünyasındakı digər siyasi partiyaların və digər dövlətlərin iştirakı ilə əlaqələrimizi genişləndirərək yolumuza davam edəcəyik".

Çıxışı zamanı bu gün regionda və beynəlxalq miqyasda mühüm reallıqlardan birinin Azərbaycan-Türkiyə münasibətləri olduğunu vurğulayan YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov deyib: "Biz mütəmadi olaraq belə bir ifadə eşidirik: "Dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın olan digər iki ölkə yoxdur". Bu, tarixi, siyasi və mənəvi həqiqətdir. Çünki bu iki dövləti bir-birinə yaxınlaşdıran və bağlayan təkcə güclü strateji tərəfdaşlıq münasibətləri deyil, eyni zamanda dostluq və qardaşlıq əlaqələridir. Milli dəyərlər və tarixi ənənələr üzərində təşəkkül tapmış bu qardaşlıq münasibətləri bənzəri olmayan birlik və həmrəylik nümunəsidir. Hər iki ölkənin milli maraqlarının, strateji mənafelərinin qorunması üçün bir-birinə güclü dəstək nümayiş etdirməsi isə bu baxımdan xüsusi vurğulanmalıdır".

Ən əsası Vətən müharibəsində haqq mübarizəsi aparan Azərbaycana qardaş Türkiyənin qətiyyətli mənəvi-siyasi dəstək nümayiş etdirməsini münasibətlərimizin zirvə hadisələrindən biri kimi qiymətləndirən Tahir Budaqov vurğulayıb: "44 günlük müharibənin başladığı gündən etibarən qardaş ölkə ictimaiyyəti Azərbaycanın haqlı və ədalətli mövqeyini müdafiə etdi, həm reallıqların dünya ictimaiyyətinə çatdırılmasında, həm də erməni yalanlarının ifşasında yüksək fəallıq nümayiş etdirdi. Prezident Rəcəb Tayyib Ərdoğanın Azərbaycanın haqq işinə prinsipial dəstəyini ifadə etməsi, digər mühüm reallıqlar Azərbaycan xalqı və dövləti tərəfindən minnətdarlıq hissi ilə çox yüksək qiymətləndirilir".

"Təqdirəlayiq haldır ki, postmüharibə dövründə də dostluğa, qardaşlığa və strateji tərəfdaşlığa əsaslanan Azərbaycan-Türkiyə münasibətləri yüksələn xətt üzrə inkişaf edir, iki qardaş ölkənin birgə təşəbbüsləri regionun yeni geostrateji dizaynında müstəsna rol oynayır. Xüsusilə də bu ilin iyun ayının 15-də Azərbaycan ilə Türkiyə arasında Strateji Müttəfiqliyə dair Şuşa Bəyannaməsinin imzalanması tərəfdaşlıq münasibətlərinin yeni səviyyəyə yüksəlməsini şərtləndirib. Şuşa Bəyannaməsinin imzalanmasından sonra görülən işlər iki ölkə arasında siyasi, iqtisadi-ticari, hərbi-strateji, mədəni-humanitar sahələrdə münasibətlərin inkişafına mühüm töhfədir", - deyən YAP Sədrinin müavini xüsusi vurğulayıb ki, Azərbaycan-Türkiyə münasibətlərinin inkişafında iki ölkənin hakim partiyası olan Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyasının daimi təmaslarının, əməkdaşlıq əlaqələrinin genişləndirilməsinin mühüm rolu var. "Əminliklə söyləmək olar ki, partiyalarımız arasında əlaqələr keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Yeri gəlmişkən, qeyd edim ki, bu ilin iyun ayında mənim rəhbərliyimlə Türkiyədə səfərdə olan YAP nümayəndə heyəti AK Partinin yüksəksəviyyəli rəsmiləri ilə görüşlər keçirib, eyni zamanda tarixdə ilk dəfə olaraq iki partiya arasında Əməkdaşlıq protokolu imzalanıb. Əməkdaşlıq protokolunun imzalanmasından sonra qarşılıqlı münasibətlərin, gələcək əməkdaşlığın yeni istiqamətləri müəyyənləşdirilib və biz ortaq hədəflərimizin reallaşdırılması istiqamətində məqsədyönlü fəaliyyətimizi ardıcıl olaraq davam etdiririk. Səfər zamanı nümayəndə heyətimizin Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qəbul edilməsini isə xüsusi vurğulamaq istəyirəm. Əlbəttə, bu təmaslar gələcək əməkdaşlığımız üçün güclü hüquqi, institusional baza formalaşdırıb. İyul ayında isə AK Parti Sədrinin birinci müavini Numan Kurtulmuşun başçılığı ilə geniş nümayəndə heyətinin ölkəmizə səfər etməsi, AK Partinin nümayəndə heyətinin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul olunması əməkdaşlığın inkişafına daha bir töhfə verib. Digər tərəfdən, partiyalarımızın gənclər təşkilatları arasında görüşlərin keçirilməsi, fikir və təcrübə mübadiləsinin aparılması münasibətlərimizə dinamizm gətirən mühüm amillərdəndir. Bunlarla yanaşı, hər iki partiyanın birgə təşkilatçılığı ilə videokonfrans formatında tədbirlərin keçirilməsi Azərbaycan ilə Türkiyənin milli maraqlarına dair məsələlərdə faydalı və əhəmiyyətli, müzakirələrin aparılması, təmasların sıxlaşdırılması və münasibətlərin inkişafı baxımından çox önəmlidir. Partiyalarımızın əməkdaşlığı çərçivəsində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 98-ci ildönümünə həsr olunmuş "Qarabağ zəfəri sonrası reallıqlar və uydurma erməni soyqırımı açıqlamasının regionda sülhə və stabilliyə təsirləri", "Qarabağ savaşı: Azərbaycan-Türkiyə qardaşlığının növbəti təntənəsi", həmçinin Gəncədə partiyalarımız arasında ikitərəfli Əməkdaşlıq protokoluna uyğun olaraq "Şuşa Bəyannaməsi: milli-mənəvi dəyərlərimizə sadiqlik və gələcək əməkdaşlıq üçün yeni çağırışlar" mövzularında konfransların keçirilməsi faktını bu baxımdan ayrıca diqqətə çatdırmaq istəyirəm. Bu tədbirlər "Bir millət, iki dövlət" olan Azərbaycan ilə Türkiyənin mənəvi-siyasi birliyinin güclənməsinə öz töhfəsini verib. Şübhəsiz ki, biz siyasi partiyalar kimi dövlət başçılarının qardaşlıq münasibətlərini, Azərbaycan ilə Türkiyə arasında sarsılmaz strateji müttəfiqliyi əsas və örnək götürərək əlaqələrimizi daha da gücləndirəcək, səmərəli, faydalı və məqsədyönlü birgə fəaliyyətimizi uğurla davam etdirəcəyik", - deyə T.Budaqov əlavə edib.

Tədbir sual-cavab formatında davam edib.

Jurnalistlərin suallarını cavablandıran Numan Kurtulmuş deyib: "Biz burada müharibədən sonra əldə edilən razılaşmaların yerinə yetirilməsini arzulayırıq. Bunun üçün də Ermənistanın erməni lobbilərinin göstərdiyi istiqamətdə deyil, Ermənistanda yaşayan erməni xalqının da xeyrinə olacaq şəkildə Qafqazda sülhə dəstək verməsini arzu edirik. Çünki Fransada, ABŞ-da və başqa ölkələrdəki erməni lobbilərinin havası ilə Ermənistan reallığı fərqlidir. Bu mənada bəzi imperialist ölkələrin Qafqazda qarışıqlıq yaratmaq üçün Ermənistanın xəyallarına keçmiş dövrlərdə də dəstək göstərmələrinin heç bir nəticə vermədiyini gördük. Azərbaycanın bu Zəfərindən sonra ortaya qoyulan, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın da Bakıya səfəri zamanı açıq şəkildə ifadə etdiyi Qafqaz bölgəsinin altı ölkəsinin problemlərin həlli üçün səmimi dialoq təməllərini inkişaf etdirməsi bütün ölkələrin xeyrinə və bölgənin gələcəyinə, sabitliyinə töhfə verəcək çox vacib bir başlanğıcdır. Azərbaycan ilə Ermənistan arasındakı fikir ayrılıqlarını bu bölgə xalqları, Azərbaycan və Ermənistan xalqları həll etməlidir. Bizim tərəfimizdən bunun səmimi və dünyada sülhü dəstəkləyən niyyət olduğunu bir daha qeyd edirəm. Tək istəyimiz yaxın bölgələrdə baş verən bütün qarşıdurmaların aradan qaldırılaraq içində olduğumuz coğrafiyanın sülh adasına çevrilməsidir. Bunun üçün altılıq təşəbbüsün çox vacib tarixi funksiya olduğunu düşünürük. Hələ başlanğıc nöqtəsindəyik. İlk mərhələdə öz seçimləri səbəbindən bu altı ölkə buna qatılmaya bilər. Amma səmimi addımlar atıldıqca mən bu altı ölkənin də şəxsi maraqları və Qafqazdakı problemlərin həlli baxımından buna dəstək verəcəyinə inanıram".

Sonra jurnalistlərin suallarına cavab verən Tahir Budaqov isə deyib: "Xarici qüvvələrin təsiri və bəzi revanşist qüvvələrin xülyalarını hələ də meydana qoyması nəticəsində sülh prosesində müəyyən ləngimələr baş verir. Lakin biz əminik ki, qısa zaman ərzində iki ölkə arasında sərhədlərin müəyyənləşdirilməsi və yekun olaraq sülh müqaviləsinin imzalanması qaçılmazdır. Eyni zamanda üçtərəfli Bəyanatdan irəli gələn vəzifələrin, o cümlədən Zəngəzur dəhlizinin açılması da tarixi reallıqdır. Düşünürəm ki, bu gün buna qarşı çıxa biləcək heç bir qüvvə ola bilməz. Amma bütövlükdə götürdükdə, yəqin ki, burada iştirak edən media nümayəndələri arasında işğaldan azad edilən ərazilərdə olanlar, oradakı vəziyyəti görənlər, o bölgələrdə bu günədək ermənilərin hansı şəraitdə və nə cür yaşadığının şahidləri var. Lakin müharibədən sonrakı qısa dövr ərzində Azərbaycan tərəfindən həmin ərazilərdə həyata keçirilən genişmiqyaslı işlər, o ərazilərin qısa zamanda Azərbaycanımızın digər bölgələri kimi, iqtisadi cəhətdən güclü və əhalinin yüksək rifah şəraitində yaşaması üçün yaradılacaq şərait ermənilərin bu sahədə seçimini daha da düzgün və obyektiv etməsinə böyük töhfə olacaq".

## Azərbaycanın və Türkiyənin hakim partiyaları arasında əlaqələrin daha da inkişaf etdirilməsi müzakirə olunub



Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovun rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyəyə səfəri davam edir.

AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində dekabrın 7-də YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqovla Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) Sədrinin birinci müavini Numan Kurtulmuş arasında görüş olub.

Görüş zamanı iki qardaş ölkənin hakim partiyaları arasında əlaqələrin daha da inkişaf etdirilməsi istiqamətində işlərin davamlılığı, növbəti perspektiv planlar müzakirə olunub.

## *Tahir BUDAQOV:* "YAP ilə AK Parti arasında münasibətlər yeni müstəviyə qədəm qoyub"

"Yeni Azərbaycan Partiyası ilə Türkiyənin Ədalət və İnkişaf Partiyası (AK Parti) arasında münasibətlər bu ildən başlayaraq yeni müstəviyə qədəm qoyub. İyun ayında partiyamızın mənim rəhbərlik etdiyim nümayəndə heyəti Ankaraya səfər edib və o zaman ilk dəfə olaraq iki partiya arasında Əməkdaşlıq Memorandumu imzalanıb.

Bu memorandum çərçivəsində iki ölkə rəhbərlərinin bir-birinə olan qardaşlıq, dostluq münasibətlərindən bəhrələnərək, onların bu münasibətini bir örnək kimi qəbul edərək iki qardaş ölkənin iqtidar partiyaları arasındakı əlaqələrin keyfiyyətcə yeni müstəviyə qaldırılması bir məqsəd kimi qarşıya qoyulub".

Bu fikirləri Türkiyəyə səfəri zamanı AZƏRTAC-a müsahibəsində Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov bildirib.

Ötən qısa dövr ərzində qarşılıqlı əməkdaşlıq istiqamətində bir çox işlərin görüldüyünü bildirən YAP Sədrinin müavini deyib: "Bizim səfərimizdən sonra AK Parti Sədrinin birinci müavini Numan Kurtulmuşun rəhbərlik etdiyi böyük bir nümayəndə heyətinin Bakıya səfəri oldu və heyət Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul edildi. Həmin səfər çərçivəsində də Gəncə şəhərində çox önəmli konfransımız baş tutdu. Bundan əlavə, YAP ilə AK Parti arasında münasibətlərin daha da inkişaf etdirilməsi, partiyaların təcrübələrindən qarşılıqlı faydalanma, bəhrələnmə məsələləri ilə bağlı onlayn formatda bir sıra görüşlərimiz, konfranslarımız təşkil edilib. Eyni zamanda hər iki partiyanın gənclər qolları arasında da çox sıx təmaslar qurulub. Fikrimcə, onların da bu formatda əməkdaşlığı bizim partiyalar arasındakı münasibətlərə yeni bir dinamika gətirib. Hazırda bizim Türkiyə səfərimiz çərçivəsində AK Partidə keçirilən görüş də bu istiqamətdə işlərin davam etdirilməsi, növbəti perspektiv planlarımızın müzakirəsinə həsr olunub. Eyni zamanda biz birgə mətbuat konfransı keçirərək həm Türkiyə, həm də Azərbaycan ictimaiyyətinə imzalanan razılaşma protokollarının icrası ilə bağlı qısa hesabat, eləcə də gələcək əməkdaşlığımızın istiqamətləri barədə açıqlamalar verdik".

## Azərbaycanın ianə etdiyi 100 min doza "Sinovac" peyvəndi Burkina-Fasoya çatdırılıb

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin tərkibində fəaliyyət göstərən Azərbaycan Respublikasının Beynəlxalq İnkişafa Yardım İdarəsinin (AIDA) əlaqələndirməsi ilə dekabrın 6-da Azərbaycanın ianə etdiyi 100 min doza "Sinovac" peyvəndi Burkina-Fasoya çatdırılıb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, Afrika dövlətlərinin COVID-19 ilə mübarizəsinə Türk Dövlətləri Təşkilatı çərçivəsində dəstək göstərilməsi məqsədilə cari ilin sentyabr ayında irəli sürülən təşəbbüs təşkilatın sədri qismində Azərbaycan tərəfindən tam dəstəklənib və Prezident İlham Əliyevin müvafiq göstərişi əsasında yardım məqsədilə 100 min doza peyvənd təşkilatın Türkiyədə keçirilən sammitindən bir neçə gün öncə İstanbula çatdırılıb.

Təşəbbüsə dəstək olaraq Azərbaycanla yanaşı, Türkiyə 200 min, Özbəkistan 100 min və Macarıstan 211 min 200 doza peyvənd ianə edib. Macarıstan tərəfindən Toqoya ianə edilən peyvəndlər də daxil olmaqla, ümumilikdə, 611 min 200 doza peyvənd Türkiyə tərəfinin logistik dəstəyi ilə dünən qeyd olunan Afrika dövlətlərinə təhvil verilib.

Qlobal səviyyədə COVID-19 ilə mübarizədə Azərbaycanın fəal rolu və ehtiyacı olan ölkələrə dəstəyinin nümunəsi kimi dəyərləndirilən bu töhfə xalqımızın yardımsevərlik ənənələri əsasında Prezident İlham Əliyev tərəfindən atılan növbəti humanist addımdır.

## *Müdafiə Nazirliyi:* "Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvünün öldürülməsi barədə məlumat əsassızdır"

*Ermənistan mətbuatında Azərbaycan Ordusunun bölmələri tərəfindən, guya, açılan atəş nəticəsində Azərbaycan ərazisindəki qanunsuz erməni silahlı dəstəsinin üzvü Qor Martirosyanın öldürülməsi barədə yayılan məlumat əsassızdır və tamamilə yalandır.*

Bu barədə AZƏRTAC-a Azərbaycan Müdafiə Nazirliyindən məlumat verilib.

Müdafiə Nazirliyi bildirir ki, bu kimi yalan məlumatların yayılması dekabrın 5-də axşam saatlarında qarşı tərəfdə baş vermiş ölümlə nəticələnən növbəti cinayətin ört-basdır edilməsi cəhdidir.

## Beynəlxalq Ədalət Məhkəməsi Azərbaycanın vəsatətini təmin edib

Dekabrın 7-də Beynəlxalq Ədalət Məhkəməsi Ermənistanın, o cümlədən Ermənistan ərazisində fəaliyyət göstərən və azərbaycanlıları hədəf alan fərdlər və təşkilatlar tərəfindən irqi nifrətin təşviqini qadağan edən müvəqqəti tədbirlərə dair Azərbaycanın vəsatətini təmin edib.

Bu barədə AZƏRTAC-a Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən məlumat verilib.

Bildirilib ki, Məhkəmə əsaslı olaraq Ermənistan tərəfinə azərbaycanlıların insan hüquqlarının pozulmasının qarşısını almaq üçün təcili tədbirlər görməyi tapşırıb. Bu qərar 2021-ci il oktyabrın 14-dən 19-dək olan Məhkəmə dinləmələrindən sonra verilib.

Azərbaycan Beynəlxalq Ədalət Məhkəməsinin Ermənistana qarşı verdiyi bu qərarını alqışlayır və Ermənistanı Məhkəmənin qərarını dərhal yerinə yetirməyə çağırır.

"Məhkəmənin Ermənistan tərəfindən tələb edilən müvəqqəti tədbirlər ilə bağlı qərarına gəldikdə, vurğulamaq istərdik ki, Ermənistan tərəfindən qaldırılan saxlanılan erməniəsilli şəxslərin dərhal azadlığa buraxılmasına, habelə Bakıdakı Qənimətlər Parkının dərhal bağlanmasına dair vəsatətlər Məhkəmə tərəfindən rədd edilib.

Azərbaycan Məhkəmənin irqi ayrı-seçkiliyin qarşısının alınması ilə bağlı qeyd etdiyi tədbirlərə əməl edəcək. Azərbaycan beynəlxalq konvensiyalarla üzərinə götürdüyü öhdəliklərə sadiqdir.

Azərbaycan beynəlxalq hüquq çərçivəsində bütün vətəndaşlarının hüquqlarını qorumağa və Ermənistanın beynəlxalq hüquq pozuntularına görə cavabdehlik daşımasını tələb etməyə davam edəcək", - deyə Azərbaycan XİN-in açıqlamasında qeyd olunur.

## Ermənistan Azərbaycanın iki ölkə arasında münasibətlərin normallaşdırılması istiqamətində addımlarına qarşılıq vermir

"Ermənistan Xarici İşlər Nazirliyinin Azərbaycan Respublikası Prezidentinin ölkənin Quba rayonunda sakinlərlə görüşü zamanı səsləndirdiyi fikirlərin imzalanmış üçtərəfli bəyanatlara, guya, uyğun olmaması və Ermənistanın ərazi bütövlüyünə təhdid təşkil etməsi iddiası Ermənistan tərəfinin öz öhdəliklərini yerinə yetirməkdən boyun qaçırdığını gizlətmək, öz əhalisində əsassız fobiyalar yaratmaq və beynəlxalq ictimaiyyətin diqqətini bu məsələdən yayındırmaq cəhdidir".

AZƏRTAC xəbər verir ki, bu fikirlər Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin Ermənistan Xarici İşlər Nazirliyinin 2021-ci il 7 dekabr tarixli açıqlamasına dair şərhində yer alıb.

Qeyd olunub ki, Azərbaycan tərəfi dəfələrlə və ən yüksək səviyyədə üç ölkənin liderlərinin imzaladıqları birgə bəyanatların icrasının vacibliyini vurğulayıb, tərəfimizdən bu istiqamətdə konkret addımlar atılıb. Ermənistan isə üzərindən bir ildən çox vaxt keçməsinə baxmayaraq, müxtəlif bəhanələrlə öhdəliklərini yerinə yetirmir, bölgədə sülh və təhlükəsizliyin təmin olunmasına əngəl törədir. Azərbaycanın Qarabağ bölgəsinə əsassız iddialarından hələ də əl çəkməyən, revanşizm sərgiləyən Ermənistan Azərbaycanın iki ölkə arasında münasibətlərin normallaşdırılması istiqamətində addımlarına qarşılıq vermir.

Azərbaycanın ərazilərini 30 ilə yaxın müddətdə işğal altında saxlayan və beynəlxalq ictimaiyyətin çağırışlarına məhəl qoymayan Ermənistan XİN-nə indi saxta əsaslarla beynəlxalq ictimaiyyətə üz tutmaqdansa, öz ölkələrinin liderinin imzaladığı bəyanatları diqqətlə oxumağı və bu sənədlərlə üzərilərinə götürdükləri öhdəliklərin icrasına keçməyi tövsiyə edirik.

İŞİMİZ, GÜZƏRANIMIZ

# Dövlətin sosial-iqtisadi siyasətinin güzgüsü



## 2022-ci ilin büdcəsi Azərbaycanın daha böyük hədəflərə kökləndiyini göstərir

Əvvəli 1-ci səh.

Belə ki, Prezident İlham Əliyev tərəfindən aparılan islahatlar və atılan qətiyyətli addımlar nəticəsində cari ildə Azərbaycan iqtisadiyyatının bütün sahələrində artım müşahidə olunub və bu, gələn il iqtisadiyyatımızın həmin artım mərhələsini davam etdirəcəyini proqnozlaşdırmağa imkan verir. Dövlət büdcəsində makroiqtisadi sabitliyin, zəruri təhlükəsizliyin və sosial şəraitin inkişaf etdirilməsi ilə bağlı planlaşdırılan tədbirlər üçün nəzərdə tutulan maliyyə vəsaitləri böyük razılıq doğurur.

2022-ci ilin dövlət və icmal büdcəsi "Büdcə sistemi haqqında" qanunun tələblərinə uyğun hazırlanıb. O, qarşıda duran çağırışlara və ölkənin təhlükəsizliyinə cavab verən, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən sənəd kimi qiymətləndirilir. Eləcə də işğaldan azad olunmuş ərazilərin sürətlə iqtisadiyyatımıza inteqrasiya olunması üçün büdcədə nəzərdə tutulan maliyyə vəsaiti olduqca müsbət rəy doğurur. Başqa sözlə, ölkəmiz yeni ilə yeni reallıqlarla daxil olur. Bu baxımdan 2022-ci ilin büdcəsində məhz işğaldan azad olunmuş ərazilərdə bərpa və quruculuq işlərinə xüsusi əhəmiyyət verilməsi tamamilə obyektiv, önəmli və təqdirəlayiqdir və dövrün, zamanın çağırışlarına adekvatdır.

2022-ci ilin büdcə gəlirləri 26,8 milyard, xərcləri 29,9 milyard manata çatdırılıb. Bu da növbəti ildə ölkəmizin qarşısında yaranacaq çağırışlara layiqli cavab vermək və bütün istiqamətlərdə, o cümlədən sosial təhlükəsizlik istiqamətində dövlət siyasətini həyata keçirmək üçün mühüm maliyyə bazası yaradacaq.

Nəzərdə tutulan büdcə gələn il sosial müdafiəyə ehtiyacı olan bütün vətəndaşlarımızın sosial rifahının qorunub saxlanılmasına və yaxşılaşmasına imkan verəcək. Eləcə də 2022-ci ildə pensiyaların, müavinət və təqaüdlərin, ünvanlı sosial yardımın həcminin və digər sosial ödənişlərin artırılmasına, bir sözlə, vətəndaşların sosial rifahının daha yaxşı təmin olunmasına şərait yaradacaq.

2022-ci ildə işsiz vətəndaşlarımızın böyük bir qrupunun özünüməşğulluqla təmin edilməsi mümkün olacaq. Belə ki, büdcədə 17 minə yaxın ailənin özünüməşğulluq proqramını maliyyələşdirmək üçün imkanlar var. Onların arasında əsas yeri şəhid ailələri, Qarabağ qaziləri və digər sosial müdafiəyə ehtiyacı olan insanlar tutacaq.

Ehtiyac meyarının həddi də artırılıb (17,6 faiz). Yəni bu meyar 30 manat artırılaraq 200 manata çatdırılıb. Bu artım dolanışıq səviyyəsi aşağı olan vətəndaşların sosial müdafiəsinin gücləndirilməsinə, ünvanlı sosial yardım alan insanlar üçün həm adambaşına, həm də ailəyə düşən vəsaitin həcminin artırılmasına imkan verəcək. Bu proqrama cəlb olunan vətəndaşların sayını artırmaq da mümkün olacaq. Eləcə də yaxın zamanlarda ehtiyac meyarını yaşayış minimumuna bərabərləşdirməyə imkan yaranacaq.

Baş nazir Əli Əsədov növbəti ildə bunlarla yanaşı, təhsil, səhiyyə sisteminin yeni dövrün tələblərinə uyğun inkişaf etdirilməsinin, ərzaq təhlükəsizliyinin təmin edilməsinin, iqtisadiyyatın və cəmiyyətin rəqəmsal transformasiyasının prioritet vəzifələr kimi müəyyənləşdirildiyini qeyd edib. Baş nazir vurğulayıb ki, ordu quruculuğu, ölkənin müdafiə qabiliyyətinin, milli təhlükəsizliyin daha da gücləndirilməsi Müzəffər Ali Baş Komandan İlham Əliyev tərəfindən qarşımızda qoyulan əsas vəzifələrdən biridir. Ölkənin müdafiə qabiliyyətinin daha da gücləndirilməsi, ordumuzun müasir hərbi texnika və silah-sursatla təchizatı, təhlükəsizliyin təmin olunması məqsədilə zəruri hərbi infrastrukturun yaradılması, hərbçilərin sosial məişət və xidmət şəraitinin yaxşılaşdırılması istiqamətində görüləcək tədbirlər üçün maliyyə təminatının yaradılması hökumət üçün əsas prioritet xərclər sırasındadır.

Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili gələn ilin dövlət büdcəsi xərclərinin 2021-ci ilin təsdiq edilmiş göstəricisi ilə müqayisədə artırılmasının ölkədə aparılan sosial-iqtisadi inkişaf strategiyasına uyğun olduğunu deyib. Belə ki, sosial xərclərin ilk dəfə olaraq dövlət büdcəsi xərclərinin 46,4 faizini təşkil etməsi, təhsil, səhiyyə, sosial müdafiə, müdafiə və təhlükəsizlik kimi prioritet xərc istiqamətləri üzrə xərclərin artırılması bu sahələrdə aparılan dövlət siyasətinin maliyyə təminatının yaradılmasına xidmət edir. Eyni zamanda Prezident İlham Əliyevin sosial ödənişlərin artırılması üçün imzaladığı sərəncamın maliyyə təminatı məqsədi ilə büdcədə nəzərdə tutulan vəsait 1,6 milyona yaxın vətəndaşın sosial rifahına birbaşa müsbət təsirini göstərəcək.

Nəhayət, ən başlıca məqamlardan biri odur ki, 2022-ci ilin dövlət büdcəsi miqyasına, istər gəlir və xərclər həcminə, istərsə də sosialyönümlülüyünə görə müstəqil Azərbaycanın ən böyük büdcəsidir. Bunun özü də bir daha göstərir ki, gələn ilin büdcəsi dövlətimizin ali siyasətinin ən bariz nümunəsidir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında sosial zonanın təşkilinə başlanacaq

### Sənaye Parkının ərazisinin yarıdan çoxu minalardan təmizlənib

Məlum olduğu kimi, Qarabağın dirçəldilməsi prioritetinə uyğun olaraq, regionun sənaye potensialının reallaşdırılması, ölkə iqtisadiyyatına reinteqrasiyası, əhalinin məşğulluğunun təmin edilməsi məqsədi ilə Azərbaycan Respublikası Prezidentinin 4 oktyabr tarixli fərmanı ilə "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı yaradılıb.

"Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkında sahibkarlar üçün əlverişli investisiya mühitinin yaradılması istiqamətində işlər mərhələli şəkildə həyata keçirilir və parka ayrılmış 200 hektar ərazinin bu günədək 105 hektarı (52 faizi) minalardan təmizlənib. Sənaye Parkının konseptual planı hazırlanıb və yaxın günlərdə parkın sosial zonasının təşkili üçün konteynerlərin quraşdırılmasına başlanılacaq.

## Əlilliyi olan şəxslərə illik sosial ödəniş xərcləri son 4 ildə 65 faiz artıb

Əlilliyi olan şəxslərə pensiya və ya müavinət, o cümlədən müharibə ilə əlaqədar əlilliyi olanlara Prezidentin aylıq təqaüdü ödənilir. Bütün bu ödənişlər üzrə illik xərclər 2018-2021-ci illərdə 65 faiz və ya 736 milyon manat artıb.




İllik xərclərdə əlilliyə görə pensiyalar üzrə 44 faiz, əlilliyə görə müavinətlər üzrə 2,6 dəfə, xüsusi kateqoriyalara aid əlilliyi olan şəxslərə ödənilən təqaüdlər üzrə 4 dəfə artım olub. Sağlamlıq imkanları məhdud uşaqlar üçün sosial ödənişlər üzrə illik xərclər isə 54 faiz artıb.

## "Azərsulfat" MMC və "Glassica" QSC-də tikinti işləri gedir

Sənayeləşmə siyasətinə uyğun olaraq, ölkəmizdə yüzlərlə müasir sənaye müəssisəsi, yeni istehsal sahələri yaradılır, daxili tələbatın ödənilməsində yerli məhsulların payı əhəmiyyətli dərəcədə artır, ixrac imkanları genişlənir.




Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin iştirakı ilə Sumqayıt Kimya Sənaye Parkında təməli qoyulmuş "Azərsulfat" MMC-nin sulfat turşusu istehsalı, "Glassica" QSC-nin şüşə tara məhsullarının istehsalı müəssisələri də istehsalın və ixracın genişlənməsinə təkan verəcək istehsal sahələrindəndir.

Hazırda bu müəssisələrdə layihələndirmə işləri tamamlanıb, tikinti-quraşdırma işləri aparılır. Eyni zamanda istehsal prosesində istifadə ediləcək avadanlıqların idxalına başlanılıb və bu istiqamətdə işlər davam etdirilir. "Glassica" QSC-də Almaniya, "Azərsulfat" MMC-də isə Çin texnologiyalarından istifadə ediləcək. Şüşə tara məhsullarının istehsalı müəssisəsinin investisiya dəyəri 12 milyon ABŞ dollarıdır, bunun artıq 7 milyon dollarlıq hissəsi layihənin reallaşdırılmasına yatırılıb və tikinti-quraşdırma işlərinin 75 faizi yerinə yetirilib.

Sulfat turşusu istehsalı müəssisəsinin investisiya dəyəri isə 6 milyon ABŞ dollarıdır, layihə üzrə indiyədək görülən işlərə artıq 2,9 milyon dollar sərmayə qoyulub və işlərin 60 faizi tamamlanıb.

Müəssisələrdə ümumilikdə 200-dən çox daimi iş yerinin yaradılması nəzərdə tutulur. Hər iki müəssisənin 2022-ci ilin birinci yarısında istifadəyə verilməsi planlaşdırılır.

Sulfat turşusu və şüşə tara məhsullarının istehsalı müəssisələri idxalın əvəzlənməsində və ixrac potensialının genişləndirilməsində əhəmiyyətli rol oynayacaqlar.

## "Məşğulluq marafonu"na 600-ə yaxın işəgötürən tərəfindən 3760 vakansiya təqdim olunub

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən bu ilin iyun ayında başladılan "Məşğulluq marafonu"na bu günədək 593 işəgötürən (52,6 faizi dövlət, 47,4 faizi özəl) qoşularaq 3760 vakansiya təqdim edib.

"Qəhrəmanlarımızın məşğulluğuna birgə dəstək olaq!" devizi altında keçirilən marafonun məqsədi Vətən müharibəsi şəhidlərinin ailə üzvlərinin və müharibədə yaralanmış qazilərimizin məşğulluğuna dəstək verməkdir.

Marafona təqdim edilən vakansiyalar üzrə həmin kateqoriyalardan olan artıq 1239 nəfər (200 şəhid ailəsi üzvü və 1039 qazi) işlə təmin olunub. Hazırda da vakansiyalar üzrə göndərişlərin verilməsi davam edir.

## Quba-Qonaqkənd avtomobil yolunun istismara verilməsi ilə 68 min nəfərin rahat gediş-gəlişi təmin edilib

Xəbər verildiyi kimi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 6-da Quba-Qonaqkənd avtomobil yolunun açılışını etmişdir.

46 kilometrlik Quba-Qonaqkənd avtomobil yolunun istismara verilməsi ilə 68 min nəfərin rahat gediş-gəlişi təmin olunur. Bu yol uzun illər əsaslı təmir olunmadığı üçün hərəkət hissəsində qabarmalar, çalalar əmələ gəlmişdi. Bu isə yolda nəqliyyatın hərəkətini çətinləşdirirdi.

Qeyd edək ki, ərazinin özünəməxsus relyefi tikinti işlərinin gedişinə də birbaşa təsir göstərib. Bəzi yerlərdə dağ yamaclarının qaya süxurları kəsilib, qrunt sularının axıdılması təmin edilib. Bir sözlə, dövlət başçısının sərəncamı ilə vətəndaşların rahatlığının təmin olunması üçün çox əhəmiyyətli işlər görülüb.

Quba-Qonaqkənd yolunun yenidən qurulması həm də əhalinin tədarük etdiyi kənd təsərrüfatı məhsullarını, meyvə-tərəvəzi qısa vaxtda istədikləri ünvana çatdırmağa imkan yaradır, həmçinin turizm imkanlarını daha da genişləndirir.



## Bir vaxtlar hətta yolu olmayan regionlarda indi ixracyönlü məhsullar istehsal edilir



Məlumdur ki, ölkədə qeyri neft-qaz sektorunun təşəkkül tapması regionların sosial-iqtisadi inkişafı ilə birbaşa bağlıdır. Təkcə ilk regional inkişaf proqramının qəbul olunduğu 2004-cü ilin qeyri-neft sektorunun da inkişafının başlandığı dövrlə üst-üstə düşdüyünü xatırlamaq kifayətdir ki, bu bağlılığın gerçək olduğuna şübhə qalmasın.

Həmin dövrdən 17 ildən çox vaxt keçib və təbii ki, görülən işlər, həyata keçirilən tədbirlər sayəsində nə regionlarımız həmin bölgələrdir, nə də qeyri-neft sektoru həmin sahə. Bir vaxtlar normal yolu, suyu, qazı, elektrik enerjisi olmayan regionlarımızda indi sənaye parkları və məhəllələri, iri emal müəssisələri fəaliyyət göstərir, rayon mərkəzlərində tikinti materiallarından tutmuş avtomobillərədək istehsal olunur. Həm də təkcə istehsal olunmur, ixrac edilir. Belə müəssisələrin coğrafiyası da genişdir. Özü də bu, düşünülmüş iqtisadi islahatların tərkib hissəsidir. Məqsəd bölgələrin iqtisadi potensialından səmərəli istifadə etməklə ölkənin sosial-iqtisadi inkişafını sürətləndirməkdir.

Bununla belə, regionların iqtisadi potensialında aqrar sahə hələ də önəmli yer tutur. O üzdən bölgələrdə aqrar sektorla bağlı müəssisələrin fəaliyyətə başlaması təbiidir. Üstəlik, Prezident İlham Əliyevin bu istiqamətdə apardığı siyasət əhali tərəfindən rəğbətlə qarşılanır. Səbəbi yeni iş yerlərinin yaradılması ilə məşğulluq probleminin həllinə dəstək verilməsidir.

Xəbər verildiyi kimi, Prezident İlham Əliyev dekabrın 6-da Qubada səfərdə olarkən "Quba ABAD Factory" qablaşdırma vasitələrinin istehsalı müəssisəsinin açılışında iştirak etmişdir. Müəssisə bu günədək yerli mikro və kiçik sahibkarlara qida istehsalı müəssisəsi kimi xidmət göstərib. Bundan sonra onlara həm də qablaşdırma vasitələrinin istehsalı müəssisəsi kimi yardımçı olacaq. Cari ilin 10 ayı ərzində "ABAD" 500 ailəyə dəstək göstərib və müəssisənin dəstəyi ilə yerli sahibkarların 5,5 milyon manatlıq müxtəlif çeşiddə sənətkarlıq və kənd təsərrüfatı məhsullarının satışı həyata keçirilib. Müəssisə tam fəaliyyətə başladıqda burada 50 nəfərin işlə təmin olunması nəzərdə tutulub.

**Təkcə bu ilin 10 ayında ölkə üzrə qeyri neft-qaz sektoruna 6,1 milyard manatdan çox vəsait yönəldilib**

Ümumiyyətlə, dünya ölkələrinin iqtisadi inkişaf modellərinə diqqət yetirdikdə onların müxtəlifliyi aydın görünür. Məsələn, bir çox ölkələrin iqtisadiyyatı xammal satmaq və xidmət sektoru ilə bağlıdır. İnkişaf etmiş ölkələrin iqtisadiyyatında isə istehsal üstünlük təşkil edir və təcrübə göstərir ki, istehsala üstünlük verən ölkələrin iqtisadiyyatı daha dinamik inkişaf edir, forsmajor hallarda daha dayanıqlı olur.

Bu səbəbdən ölkəmizdə aparılan iqtisadi islahatların da başlıca məqsədi istehsalı artırmaqdır. Məhz bunun üçün qeyri neft-qaz sektorunun inkişafı prioritet hədəf kimi seçilib. Həmin hədəf isə məlum olduğu kimi, kapital qoyuluşu tələb edir. O üzdən dövlət həm sözügedən sahəyə özü hər il milyonlarla manat sərmayə yatırır, həm də bunun üçün yerli və xarici investorlara geniş güzəştlər tətbiq edir. Söz düşmüşkən qeyd edək ki, təkcə bu ilin 10 ayında ölkə üzrə qeyri neft-qaz sektoruna 6,1 milyard manatdan çox vəsait yönəldilib.

İndi Azərbaycanda qeyri neft-qaz sektoru üzrə məhsul istehsalında sənaye parkları və zonaları üstünlük təşkil edir. Dövlət büdcəsi hesabına həmin ərazilərdə bütün infrastruktur yaradılır. Üstəlik, buraya investisiya yatıran sahibkarlara müxtəlif növ vergi və gömrük güzəştləri edilir, onlar bütün bürokratik əngəllərdən qorunur və əsas işlər istehsalı təşkil etmək olur. Bunun nəticəsidir ki, qısa bir müddətdə sənaye parklarında və zonalarında çoxçeşidli məhsullar istehsal olunur. Həmin məhsullar yerli bazarda satılmaqla yanaşı, xarici bazarlara da ixrac edilir. Son dövrlər ixracda qeyri neft-qaz məhsullarının çəkisinin sürətlə artması da bununla bağlıdır.

Qeyri neft-qaz sektorunda qazanılan uğurlar bu sektor üzrə açıqlanan statistik rəqəmlərdən də görünür. Belə ki, cari ilin yanvar-oktyabr aylarında ötən ilin müvafiq dövrü ilə müqayisədə ölkə üzrə qeyri-neft məhsullarının ixracında 42 faiz artım qeydə alınıb. Həmin dövr ərzində Azərbaycan 2,1 milyard dollarlıq qeyri-neft məhsulları ixrac edib. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzindən verilən məlumata görə, cari ilin 10 ayı ərzində qeyri neft-qaz ixracında yeyinti məhsullarının payı 3,2 faiz artaraq 582,2 milyon dollarlıq olub. Həmin dövr ərzində qara metal və ondan hazırlanan məmulatların ixracında 3,2, mis və ondan hazırlanan məmulatların ixracında 2,2 dəfə, pambığın ixracında 87,6, üzvi kimyəvi birləşmələrin ixracında 40,6, şəkər və şəkərdən hazırlanan qənnadı məhsullarının ixracında 59,2, alüminium və ondan hazırlanan məmulatların ixracında 61,7, qiymətli metal və ondan hazırlanan məmulatların ixracında isə 4,3 faiz artım qeydə alınıb.

**Cari ilin yanvar-oktyabr aylarında ötən ilin müvafiq dövrü ilə müqayisədə qeyri-neft məhsullarının ixracında 42 faiz artım qeydə alınıb**

Bu dövrdə Rusiya Federasiyasına 665,4 milyon, Türkiyəyə 509,4 milyon, İsveçrəyə 184,1 milyon, Gürcüstana 131,5 milyon və ABŞ-a 60,5 milyon dollar dəyərində qeyri-neft məhsulları ixrac edilib.

Oktyabrda isə qeyri-neft sektoru üzrə ixracda artım 50,4 faiz təşkil etməklə 244,6 milyon dollarlıq olub. Bu ay ərzində yeyinti məhsulları üzrə ixracın dəyəri 76,5 milyon dollar təşkil edib. Qeyri-yeyinti məhsulları üzrə ixrac isə 2 dəfə artaraq 168 milyon dollara çatıb. Həmin dövrdə qeyri-neft sektoruna aid ən çox mal ixrac edilən ölkələrin siyahısında Rusiya Federasiyası birinci, Türkiyə ikinci, Braziliya üçüncü olub.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*





# Vətən deyəndə...





● Qarabağ Azərbaycandır!



# Zəfər paradı - Qələbəmizin rəmzi

## 2020-ci il dekabrın 10-da Azadlıq meydanında keçirilən möhtəşəm hərbi parad həm də Türkiyə-Azərbaycan qardaşlığının nümayişi idi

**Azərbaycan xalqı tarix boyu əzəli vətən torpaqlarını qorumaq üçün mərdliklə vuruşub, qanı və canı bahasına öncə müstəqilliyimizi qurmağa, sonra isə onu qorumağa çalışıb. Bu zaman ərzində soyqırımlara da məruz qalıb, müəyyən dövrlərdə müstəqilliyimiz də əlimizdən alınıb. Lakin bunların heç biri millətimizin mübarizə əzmini qırmayıb. Hər keçən gün mübarizə və müstəqillik hisslərimizi daha da artırıb.**



Bir il bundan öncə, 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Azərbaycanın qələbəsi şərəfinə keçirilən Zəfər paradı da tarixə əbədi həkk edilən hadisədir. 3000 əsgər və zabitimizlə yanaşı, qardaş, dost Türkiyənin qoşun birləşmələrinin nümayəndələrinin də Zəfər paradında iştirak etməsi isə düşmənə və onun arxasında dayanan böyük güclərə bir mesaj idi: Azərbaycan tək deyil. Paradı Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və fəxri qonaq qismində dəvət olunmuş Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qəbul edib.

Əlbəttə, iki qardaş ölkənin rəhbərinin paradı birgə qəbul etməsi beynəlxalq ictimaiyyətə verilmiş ciddi mesaj idi. Azərbaycan və türk əsgərlərinin çiyin-çiyinə Azadlıq meydanından keçməsi xalqların tarixində əbədi qalacaq qürurverici hadisə kimi yazıldı. O gün bambaşqa idi: ölkəmizin bütün şəhər, rayon və hətta ən ucqar kəndlərinin də Azərbaycan və Türkiyə bayraqları ilə bəzədilməsi iki doğma xalqın mənəvi yaxınlığının təzahürü idi.

Bu, ilk növbədə, hərbi qüdrətin nümayişi olaraq, dövlətimizin yerləşdiyi regionda nəinki iqtisadi, eyni zamanda ordu quruculuğunun NATO standartları səviyyəsində inkişafının nümayişi anlamını da verirdi. Vətən müharibəsində qazandığımız möhtəşəm Qələbəmizə həsr olunmuş Zəfər paradında 150-dək hərbi texnika, o cümlədən silahlanmaya yeni qəbul edilmiş müasir raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, eləcə də hərbi gəmi və katerləri nümayiş etdirildi.

Azərbaycan Prezidenti İlham Əliyevin o gün Zəfər paradının tribunasından səsləndirdiyi fikirlər də hərb tariximizə qızıl hərflərlə yazıldı: "...Bu gün biz qəhrəman xalq kimi bu bayramı qeyd edirik. Azərbaycanın müzəffər ordusu öz tarixi missiyasını yerinə yetirdi - Ermənistanı məğlub etdi. Ermənistan ordusu demək olar ki, yoxdur, məhv edilib. Bundan sonra əgər erməni faşizmi bir daha baş qaldırsa, nəticə eyni olacaq. Yenə Azərbaycanın "dəmir yumruğ"u onların belini qıracaq..."

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın isə "Azərbaycanın torpaqlarını işğaldan azad etməsi heç də mübarizənin başa çatması demək deyildir" fikrinin arxasında daha mühüm və gələcəyə hesablanmış hərbi-diplomatik siyasət dayanır: "Bu günə qədər siyasi və hərbi sahələrdə davam etdirilən mübarizə bundan sonra çox fərqli cəbhələrdə davam edəcəkdir. Otuz illik işğal müddətində bu bölgələrin viranəyə çevrildiyini, daş üstündə daş qalmadığını hamımız birlikdə gördük. Qardaşım İlham Əliyevin dediyi kimi, Füzuli şəhərində bayraq asmağa belə bina tapılmamışdır. Bütün şəhərlər tarmar edilmiş, bütün kəndlər yerlə-yeksan olunmuş, məzarlıqlar belə dağıdılmışdır. Məscidlər dağıdılmış, minarələr eynilə tarmar olmuşdur. Ermənilər hər şeyi məhv etdikləri kimi, tarixi və mədəni abidələri də, təbii sərvətləri də qarət etdilər. Bütün bu ziyanın hesabı sorulmalıdır. Bu yerdə əlavə sözə ehtiyac varmı?"

O gün yadda qalanlardan biri də müharibə zamanı qənimət kimi ələ keçirilmiş Ermənistana məxsus hərbi texnikanın bir qisminin nümayiş etdirilməsi idi. Bu zəfər xalqın qürur mənbəyinə çevrildi, çünki həm də ölkədəki bütün siyasi qüvvələri birləşdirdi. Zəfərlə bağlı siyasi partiya rəhbərlərinin imzaladığı birgə bəyanatda Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin "Bizim Ermənistan torpağında siyasi və hərbi maraqlarımız yoxdur" fikrinin sitat gətirilməsi də bir daha təsdiqlədi ki, ölkədə siyasi baxışlarından asılı olmayaraq, xalq-hakimiyyət birliyi monolitdir. Bu da Azərbaycanın ədalətli mövqe tutmasını təsdiqləyən faktorlardandır.

Zəfər paradınadək isə xalqımızın və ordumuzun bu qələbəyə inamlı olmasının şahidinə çevrildik. Ona görə deyə bilərik ki, döyüşlər gedən 44 günün hər anı şanlı tarixdir. Hər gün Azərbaycan Ordusu irəli gedir, yeni şəhərlər, kəndlər, qəsəbələr, strateji əhəmiyyətli yüksəkliklər azad edilirdi. Azərbaycan əsgəri və zabiti bir amalla vuruşurdu: "İşğala son qoyulsun - tarixi ədalət zəfər çalsın!"

Dağlıq Qarabağ münaqişəsinin ədalətli şəkildə həlli, eyni zamanda ərazi bütövlüyümüzün bərpası taleyüklü bir vəzifə idi. Azərbaycan hər zaman humanistlik nümayiş etdirib. Bu səbəbdən də beynəlxalq səylərinə baxmayaraq, münaqişənin sülh danışıqları yolu ilə həllinə nail olmağa çalışsa da, Ermənistanın öz təcavüzkar mövqeyi ucbatından məsələnin həlli uzadılırdı. Azərbaycan Prezidenti İlham Əliyev bütün beynəlxalq tribunalarda daim qeyd edirdi ki, "bizim ən böyük kompromisimiz sülh danışıqlarına sadiq qalmağımızdır. Lakin biz bu imkanlardan istifadə etməklə yeni şərait yaratmalıyıq".

Dövlət başçısı müharibəni ən son variant kimi görürdü. Ona görə də ötən illər ərzində ordu quruculuğu xüsusilə diqqət mərkəzində saxlandı. Ali Baş Komandan İlham Əliyev bu illər ərzində Ermənistan rəhbərliyinə qoşunlarının Dağlıq Qarabağdan öz istəyi ilə olmasa, hərbi yolla çıxarılacağını dəfələrlə bildirmişdi. Ermənistanın təxribatçı addımları isə artıq müharibəni qaçılmaz etmiş, danışıqlara son qoymuşdu. Beləliklə, Ermənistanın 27 sentyabrdakı sonuncu təxribatı danışıqları tamamilə dayandırmışdı.

Ali Baş Komandanın əmri ilə Azərbaycan Silahlı Qüvvələri "Dəmir yumruq" əməliyyatı adı altında işğal edilmiş ərazilərimizin azadlığı uğrunda 44 günlük şanlı tariximizi yazan Zəfər yürüşünə başladı. Dərindən düşünülmüş hərbi strategiya, döyüş əməliyyatlarının məharətlə keçirilməsi, vəziyyəti nəzarətdə saxlamağa qadir olan döyüş taktikası, Ali Baş Komandanın prosesi yüksək peşəkarlıqla idarə etməsi qələbəyə gedən yolumuzu qısaltdı.

Əsasını Heydər Əliyevin qoyduğu ordu quruculuğumuz Ali Baş Komandan İlham Əliyevin təşəbbüsü ilə bu dövr ərzində inkişaf etdirilmiş, muasir standartlara cavab verən silahlar və artilleriya, eyni zamanda müxtəlif tip qoşun növləri ilə düşmən ordusunun önünə çıxmışdı. Əsgər və zabitlərimiz 44 gün ərzində Ermənistanın 30 ilə yaxın müddətdə qurduğu və aşılmaz hesab etdiyi istehkamları yararaq keçdi.

Azərbaycan beynəlxalq hüququ və tarixi ədaləti bərpa etdi. Şanlı Ordumuz məhz belə mürəkkəb amillərin mövcud olduğu bir şəraitdə parlaq qələbə qazandı. Prezident İlham Əliyevin təbirincə desək, "bizim "Dəmir yumruğ"umuz həm birliyimizi, həm də gücümüzü təcəssüm etdirdi".

Nəhayət, 10 noyabrda Ermənistan müharibənin başa çatması ilə bağlı kapitulyasiya aktına imza atdı. 44 gün ərzində Azərbaycan parlaq qələbə qazanaraq Ermənistanı məğlub etdi: işğala son qoydu. Bununla da tarixi ədalət bərpa edildi. Bu, tairixi zəfərdir. Onu da qeyd etməliyik ki, beynəlxalq platformalarda danışıqların aparılması, mövqelərimizin möhkəmləndirilməsi, bu məsələ ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə dolğun şəkildə çatdırılması da öz səmərəsini verdi. Beləliklə, Azərbaycan müharibəni döyüş meydanı ilə yanaşı, siyasi arenada da uddu və 44 günlük Vətən müharibəsində istəyinə nail oldu.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

● Vətən sənə oğul deyib...

# Şuşanın azad edildiyini eşidəndə əbədiyyətə qovuşan kapitan

**Hikmət sinəsini düsmənə sipər edən babaları kimi, ucaboy, qədd-qamətli idi. Yaşıdlarından həm də hərbçi peşəsinə olan marağı ilə fərqlənirdi. Yaxşı oxumaq, öndə gedənlərdən, Vətənin, elin-obanın fəxarət duyduğu hərbçilərdən olmaq onun ən böyük arzusu idi.**



Qəhrəmanımız - Milli Ordunun kapitanı Hikmət Hacıyev respublikamızın suverenliyinin qorunmasında, ərazi bütövlüyünün bərpa olunmasında, yurdumuzun 30 illik erməni işğalından azad edilməsində canından keçən şəhidlərimizdəndir.

Hikmət 7 dekabr 1984-cü ildə respublikamızın qərb bölgəsində, Şəmkir şəhərində hərbçi ailəsində anadan olub. Hələ kiçik yaşlarından hərbçi olmağı qarşısına məqsəd qoyub. Odur ki, orta məktəbin yeddinci sinfini bitirəndən sonra Bakıya gəlib, sənədlərini Cəmşid Naxçıvanski adına Hərbi Liseyə verib. O, 2002-ci ildə hərbi liseyi müvəffəqiyyətlə bitirdikdən sonra təhsilini davam etdirmək üçün Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olub. Hikmət Hacıyev 2002-2006-cı illərdə bu hərbi təhsil ocağını uğurla bitirərək çoxdan arzusunda olduğu leytenant rütbəsinə layiq görülüb. Həmin vaxtdan həyatını Silahlı Qüvvələrdə xidmətə bağlayıb, müxtəlif hərbi hissələrdə xidmət edib. Nümunəvi xidmətinə, hərbi bacarığına görə Hikmət Şubay oğluna 2014-cü ildə kapitan rütbəsi verilib.

Ötən il sentyabrın 27-də başlayan Vətən müharibəsində Hikmət Füzuli istiqamətində gedən döyüşlərin ön xəttində olur. Bu yerlər ona yaxşı tanış idi. Taborun bölük komandiri Hikmət Hacıyev əvvəllər 3 il bu ərazilərdə xidmət etmisdi. Qaraxanbəyli kəndi uğrunda gedən döyüslərdə Hikmətin rəhbərlik etdiyi bölük mühasirəyə düşür. Təcrübəli hərbçi yerli relyefə bələd olduğundan bölüyü mühasirədən çıxarmaq üçün özü bir neçə erməni əsgərinə qarşı tək vuruşur, bu zaman boynundan yaralanır. Mühasirəni atışa-atışa sonuncu tərk edən Hikmət nəticədə tabeliyində olan bütün əsgərləri ölümdən, əsirlikdən xilas edir. Təəssüf ki, o, erməni gülləsinin fəsadlarından can qurtara bilmir. Səhhəti anbaan ağırlaşan Hikməti oktyabrın 2-də təcili hərbi xəstəxanaya aparır və nəfəs aparatına qoşurlar.

O, uzun müddət müalicə alır. Noyabrın 8-də ailə üzvləri xəstəxanada Şuşanın azad edildiyini, Qələbə xəbərini ona çatdıranda danışa bilməyən komandirin çöhrəsinə təbəssüm qonur, gülümsəyir və gözlərini əbədi yumur.

Milli Ordunun zabiti Hikmət Hacıyev Şəmkir şəhər qəbiristanlığında dəfn edilib. Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçən kapitan Hikmət Hacıyevin xidmətləri unudulmur, qəhrəmanlığı xalq və dövlət tərəfindən yüksək qiymətləndirilir. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərəncamları ilə Hikmət Hacıyev ölümündən sonra "Vətən uğrunda" və "Füzulinin azad olunmasına görə" medalları ilə təltif edilib.

Müqəddəs şəhidlik zirvəsinə ucalan elin igid oğlu Hikmət Hacıyevin şücaətlərindən qürur duyan həmyerliləri, ailə üzvləri, hərbçi yoldaşları və məktəblilər tez-tez şəhidin məzarını ziyarət edir, üzərinə tər gül dəstələri qoyurlar.

***İlyas QASIMOV,***
***jurnalist***

● Hər şey Vətən üçün, hər şey Qələbə üçün!

# Cəbhəyə şirin sovqat...

**Müharibə başa çatsa da, qələbə əzmi ilə döyüşən ordumuzun Ali Baş Komandanı İlham Əliyev başda olmaqla, sıravi əsgərimizədək hər kəsin 44 gün ərzində göstərdiyi vətənpərvərlik dillərdə dastana çevrilib. Müharibə yalnız qələbə ilə tarixə yazılmadı, həm də xalqımızın o qanlı-qadalı günlərdə milli birliyini dünyaya nümayiş etdirdi. Ön cəbhədə döyüşən oğulların arxada gözləri qalmasın deyə, hamı səfərbər oldu. Kimin gücü nəyə çatırdısa, ordumuza, ön cəbhədəki igidlərimizə maddi və mənəvi dəstək olurdu.**



Həmin günlərdə bir qrup qadın bir araya gələrək, həmrəylik nümunəsi göstərdilər: bişirdikləri isti xörək və şirniyyatı ön cəbhəyə, həm də hospitallardakı yaralı qazilərimizə yolladılar. Həmin qadınlardan biri də Sumqayıtda yaşayan Güllü Muraddır. Deyir ki, bizim komandamızın müharibə başlayandan hər şənbə-bazar günləri cəbhə bölgəsinə isti xörək və şirniyyat bişirib yollaması adi hala çevrilmişdi: "...Aramızda ön cəbhədə döyüşən oğulların anaları da var, dədə-baba torpaqları işğalda qalanlar da. Biz, bu işlə məşğul olan qadınlar, əslində, o günlərədək bir-birimizi yaxından tanımırdıq. Müharibə həm də bizi, arxada xalqımızı birləşdirdi. Bu birlik bizə düşmən üzərində qələbə qazandırdı. Müharibəni zəfərlə başa çatdıran igidlərimiz gördülər ki, dövlətimizlə xalqımız ön cəbhədə döyüşənləri hər cür qayğıyla əhatə etdilər. Bu, onlarda əhvali-ruhiyyəni artırdı. Ermənilərin fərariliyinin də şahidi olduq. Şəhidlərimizə Allah rəhmət eləsin. Qazilərimizə şəfa diləyə-diləyə biz qadınlar da onlara kömək etmək üçün bacardığımızı əsirgəmədik.

Müharibə bitdi, ordumuz qələbə çaldı. Lakin bizim qrupda birləşən qadınlarımız bu xeyirxahlıq ənənəsini dayandırmadılar. Həftəarası xəstəxanalardakı yaralı əsgərlərimizə də sovqatımızı əsirgəmirik. Demirdik ki, onların buna ehtiyacı var, ya yox. Onların səmimi, isti, ana-bacı sevgisi ilə əhatə olunmasına çalışırıq. Bu xidmətimizi dayandırmırıq. Əsgərlərimiz bilsinlər ki, bu, onlara yardım deyil, ana-bacı qayğısıdır..."

Qrupda Gültəkin Sadıqova, Samirə Mahmudova, əsgər analarından Mətanət Quliyeva, doğma yurdu Zəngilanı azad edilən Diləfruz Xəlilova, Sara Əkbər, Könül, Ziba, Hüsniyyə, Aytən, Sevinc Musəvi, Fəridə, Nazlı, Nəzakət Cəfərova, Şahanə, Dildar Hazıyeva, şəhid qızı Sima Qəhrəmanlı və s. kimi xanımlarımız, qızlarımız var ki, müxtəlif rayonlardan gələrək bir ailə kimi birləşib bu təşəbbüslə xidmət göstərirlər.

Evlərində çalışan və "İnstaqram" üzərindən bir qrupda birləşərək, sovqatlarını davam etdirən xanımlar, əllərinizə, könlünüzə sağlıq! Əsgərə sovqat göndərən xanımlar, bu qələbədə, şəksiz ki, sizin də payınız var. Çünki deviziniz belə olub: "Hər şey Vətən üçün, hər şey Qələbə üçün!"

***M.NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

● Ölməzliyə qovuşanlar

# Masazırda şəhidin anım mərasimi keçirilmişdir

**44 günlük Vətən müharibəsində düşmən üzərinə yeriyən igidlərimizin arasında abşeronlular da var idi. Nicat Salahov onlardan biridir. O, sinəsini düşmənə sipər edib şəhidlik zirvəsinə yüksəlmişdir.**



Masazırda şəhidin anım mərasimi keçirilmişdir. Anım mərasimində iştirak edən Abşeron Rayon İcra Hakimiyyətinin başçısı İradə Gülməmmədova bildirmişdir ki, həmin günlər hər bir Azərbaycan vətəndaşı müsəlləh əsgərə çevrilmişdi: "Abşeronun igidləri sırasında döyüşə atılanlardan biri də Nicat idi. O, özünün qısa, lakin ləyaqətli ömrü ilə tarix yazan şəhidlər sırasındadır. Bu gün onların hər biri ən yüksək hörmətə layiqdir".

Mərasimdə iştirak edən ictimaiyyət nümayəndələri, şəhid ailələri, qazilər, veteranlar Nicat Salahovun keçdiyi döyüş yolu barədə söz açıb, Vətən uğrunda çarpışan hər kəsi ehtiramla yad etmişlər.

Sonra İ.Gülməmmədova şəhidin ailə üzvlərinin qayğıları və problemləri ilə maraqlanmış, onların həlli üçün tapşırıqlar vermişdir.

***Akif ƏLİYEV,***
***"Azərbaycan"***

# Böyük qayıdışın astanasında

## Doğma yurdlarına qayıdacaq vətəndaşlarımız üçün Qarabağ və Şərqi Zəngəzurda yüksək şərait yaradılır, müasir infrastruktur qurulur








*Əvvəli 1-ci səh.*

Hazırda Azərbaycan dövləti bu mühüm missiyanın həyata keçirilməsi üçün Şərqi Zəngəzurda və Qarabağda böyük quruculuq və bərpa işləri aparır. Dövlətimiz bütün potensialını, gücünü səfərbər edərək çalışır ki, çox qısa zamanda bu yerlərə yenidən həyat qayıtsın.

### İşğaldan azad edilən ərazilər sürətlə bərpa olunur

Dövlət başçısı İlham Əliyevin şəxsi diqqəti və nəzarəti altında işğaldan azad edilən ərazilərdə infrastruktur yenilənir, yeni yollar çəkilir, hava limanları istifadəyə verilir, eyni zamanda barbar ermənilərin illərlə divan tutduğu tarixi, mədəni, dini irsimiz yüksək səviyyədə bərpa olunur. Tezliklə öz doğma torpaqlarına qayıdacaq insanlar üçün ən müasir imkanlar, onların rahat yaşaması, işlə təmin olunması, təhlükəsizliyi, istirahəti üçün hər cür şərait yaradılır. Qarabağda və Şərqi Zəngəzurda aparılan sürətli işlər, bu ərazilərdə dəmir yolları, beynəlxalq hava limanlarının inşası bölgəni eyni zamanda xarici sərmayələr, həm də turizm üçün cəlbedici məkana çevirir.

Azad olunmuş ərazilərdə gerçəkləşdiriləcək mühüm layihələrdən biri də o bölgələrin "yaşıl enerji" zonasına çevrilməsidir. Belə ki, Prezident İlham Əliyevin birbaşa təşəbbüsü və nəzarəti ilə Şərqi Zəngəzur və Qarabağ bölgəsində ərazilərin bərpa edilməsi və yenidən qurulması ilə yanaşı, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyası həyata keçirilir.

Qeyd edək ki, ilk "ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü ağalı kəndlərini əhatə edir. Layihənin icrası əsasən 5 komponent üzrə aparılır - yaşayış, istehsal, sosial xidmətlər, "ağıllı kənd təsərrüfatı" və alternativ enerji sahələri. Ərazidə ilk olaraq tam izolyasiya olunmuş və innovativ tikinti materiallarından istifadə edilməklə 200 fərdi evin tikintisi nəzərdə tutulub.

Onu da bildirək ki, mərhələli şəkildə keçmiş məcburi köçkünlər işğaldan azad olunan dədə-baba yurdlarına baş çəkir, orada aparılan quruculuq, bərpa işləri ilə tanış olurlar.

Elə bu ilin 20 iyulunda Zəngilanın Ağalı kənd sakinləri də "ağıllı kənd"də aparılan işlərlə tanış olub, öz yurdlarında qurbanlar kəsiblər. Azad edilmiş ərazilərdə salınan ilk "ağıllı kənd"in sakinləri olmaqdan qürur hissi keçirən vətəndaşlar tezliklə kəndə qayıtmaq, burada həmişəlik yaşamaq niyyətində olduqlarını bildiriblər.

Tezliklə Ağalı kənd sakinlərinin əbədi olaraq "ağıllı kənd"lərinə qovuşacaqları gözlənilir.

### Şərqi Zəngəzur və Qarabağ tarixi şöhrətini bərpa edəcək

"Bu gün biz gələcəyi yaradırıq, öz əllərimizlə yaradırıq"- söyləyən İlham Əliyev bildirir ki, qarşıya qoyulan bütün hədəflər təmin edilir: "Biz bu hədəflərə çatacağıq, ölkəmizi gücləndirəcəyik, ordumuzu yenə də gücləndirəcəyik və Azərbaycan xalqının təhlükəsiz həyatını təmin edəcəyik. Əlbəttə ki, 30 il ərzində əziyyət içində, o cümlədən mənəvi əzab içində yaşamış köçkünləri maksimum qısa müddət ərzində öz doğma torpaqlarına qaytaracağıq".

Prezident İlham Əliyevin dəfələrlə vurğuladığı kimi, Qarabağa və Şərqi Zəngəzura qayıdış üçün Azərbaycana, sadəcə, vaxt lazımdır. Çünki vandal ermənilər 30 il ərzində işğal altında saxladıqları ərazilərimizdə görünməmiş vəhşiliklər törədərək daşı daş üstündə qoymayıblar, o bölgələrimizin ekologiyasını tamamilə məhv ediblər.

Lakin Azərbaycan dövlətinin, onun qətiyyətli liderinin əzəli tarixi torpaqlarımızda əzmlə həyata keçirdiyi hərtərəfli quruculuq-bərpa işləri sayəsində Şərqi Zəngəzur və Qarabağ cənnətməkana çevriləcək, tarixi şöhrətini bərpa edəcək.. Və tezliklə keçmiş məcburi köçkünlər öz doğma yurdlarına əbədi yaşamağa qayıdacaqlar.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş ümumrespublika konfransı





Dekabrın 7-də İçərişəhərdə "Art Garden" restoranında Nizami Gəncəvinin 880 illik yubileyinə həsr olunmuş yekun ümumrespublika konfransı keçirilib. "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin təşkil etdiyi konfrans çərçivəsində Xarici İşlər Nazirliyinin təşkilati, UNESCO üzrə Azərbaycan Respublikasının maliyyə dəstəyi ilə işıq üzü görmüş respublikamızın tanınmış Nizamişünas alimləri və klassik Azərbaycan, eləcə də rus tədqiqatçılarının elmi araşdırmalarının toplandığı "Nizami Gəncəvi klassik və müasir tədqiqlərdə" adlı kitabın təqdimatı olub.




AZƏRTAC xəbər verir ki, konfrans ölkəmizdə bu ilin "Nizami Gəncəvi ili" elan edilməsi ilə bağlı müvafiq sərəncama əsasən təşkil edilib.

Tədbiri "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruq İdarəsinin Aparat rəhbəri Read Qasımov açaraq bildirib ki, 2019-cu ildə İmadəddin Nəsiminin 650 illik yubileyi münasibətilə bütün ilboyu eyni xarakterli layihələr reallaşdırılmış və nəticədə "Bir əsrlik Nəsimi araşdırmaları" adlı elmi məqalələr toplusu nəşr olunmuşdur. İnanırıq ki, "Nizami Gəncəvi ili"nin sonunda ərsəyə gələn "Nizami Gəncəvi klassik və müasir tədqiqlərdə" adlı araşdırmalar toplusu da elm və sənət tariximiz üçün çox faydalı olacaq.

Konfransda kitabın elmi redaktoru, Milli Məclisin deputatı, akademik Rafael Hüseynov bildirib ki, Nizami Gəncəvi lap çoxdan yalnız Azərbaycanın övladı olmaq çərçivəsindən çıxıb: "Onun ədəbi yadigarları bəşəriyyətin ən qiymətli sərvətləri xəzinəsinə daxil olub, özü isə bütün xalqların, insanlığın övladı olmaq mərtəbəsinə ucalıb. Nizamidən sonra onun əsərlərinə yüzlərlə nəzirələr yazılıb, Hindistanda Əmir Xosrov Dəhləvi Nizami poemalarına cavab olaraq ilk beşliyi yaratmaqla, əslində, həm də Nizami məktəbinin bünövrəsini qoydu. Əmir Xosrov həm də Nizamiyə cavab yazmağın düsturunu müəyyənləşdirdi: süjet, obrazlar qalmalı, təməl prinsipləri qorunmalıdır".

Nizaminin dünya dillərinə ən çox tərcümə edilmiş klassiklərdən olduğunu söyləyən R.Hüseynov deyib ki, bu dillərin sırasına zaman ötdükcə yeni-yeni dillər əlavə olunacaq. "Nizami əsərləri ilə yalnız əsrlərboyu təkrarlanacaq ədəbi model deyil, həm də düşüncə, millət quruculuğu, mənəviyyat quruculuğu, dövlət quruculuğu modeli yaratdı. O ideyaları ki, onları Nizami səkkiz əsr əvvəl təbliğ edirdi, bu gün də arzulanandır. O keyfiyyətlər ki, Nizami səkkiz əsr əvvəl onları insanlarda, cəmiyyətdə görmək istəyirdi, bu gün də insanlıq həmin dəyərlərin daha artıq bərqərar olması yolunda mübarizə aparır. Nizami daim bizdən bir addım irəlidədir, həmişə də bizdən bir addım qabaqda olacaq və hər zaman da bizi daha aydın gələcəyə yönəldəcək", - deyə akademik qeyd edib.

Dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvinin bəşəriyyətin bədii fikir salnaməsində yeni səhifə açmış nadir şəxsiyyətlərdən biri olduğunu deyən Xalq yazıçısı Anar vurğulayıb ki, böyük şairə həsr olunan hər bir tədbir Nizami bayramıdır: "Nəhəng sənətkarın xalqımızın mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş parlaq irsi əsrlərdən bəri Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus layiqli yerini qoruyub saxlamaqdadır. Nizami hər zaman bu xalqa xidmət edib. Nizami də Homer və Firdovsi, Yunis Əmrə və Nəvai, Rustaveli və Puşkin kimi bütün dünyanın fəxridir, amma ilk növbədə, əlbəttə, öz xalqının övladıdır".

Konfransda Milli Məclisin deputatı, akademik Nizami Cəfərov, professorlar Vilayət Quliyev, Şəfəq Əlibəyli, Zümrüd Dadaşzadə, filologiya üzrə fəlsəfə doktoru Əsmətxanım Məmmədova və başqaları Nizami yaradıcılığı haqqında danışaraq kitab barədə fikirlərini bölüşüblər.

Diqqətə çatdırılıb ki, Nizami Gəncəvi ömrü boyu dövrün mühüm mədəniyyət mərkəzlərindən olan qədim Azərbaycan şəhəri Gəncədə yaşayıb yaradaraq, Yaxın və Orta Şərq fəlsəfi-ictimai və bədii-estetik düşüncə tarixini zənginləşdirən ecazkar söz sənəti incilərini də məhz burada ərsəyə gətirib. Nizami Gəncəvinin geniş şöhrət tapmış "Xəmsə"si dünya poetik-fəlsəfi fikrinin zirvəsində dayanır.

Mütəfəkkir şair çox sayda davamçılarından ibarət böyük bir ədəbi məktəbin bünövrəsini qoyub. Nizaminin ən məşhur kitabxana və muzeyləri bəzəyən əsərləri Şərq miniatür sənətinin inkişafına da təkan verib.

Vurğulanıb ki, ölkəmizdə yubileyinin 880 illiyi silsilə tədbirlərlə qeyd olunan dahi şairin irsinə həsr olunmuş "Nizami Gəncəvi klassik və müasir tədqiqlərdə" adlı kitab "Nizami Gəncəvi ili"nə gözəl bir töhfədir. Kitabdan elmi-mədəni, geniş ictimai auditoriya, həmçinin ali məktəblərin müəllim və tələbələri yararlana bilərlər.

Qeyd edək ki, iki fəsildən - "Nizami Gəncəvi klassik araşdırmalarda" və "Nizami Gəncəvi müasir tədqiqlərdə" ibarət kitabın redaktoru akademik Rafael Hüseynov, "Ön söz" müəllifi "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruq İdarəsinin İdarə Heyətinin sədri Əsgər Ələkbərov, işçi qrupun rəhbəri filologiya üzrə fəlsəfə doktoru İradə Musayevadır.

# Bakıda "Yaxşı idarəçiliyin təbliğində ombudsmanın və vətəndaş cəmiyyəti institutlarının rolu" mövzusunda "dəyirmi masa" keçirilib

Dekabrın 7-də Bakıda Beynəlxalq İnsan Hüquqları Gününə həsr olunan "Yaxşı idarəçiliyin təbliğində ombudsmanın və vətəndaş cəmiyyəti institutlarının rolu" mövzusunda "dəyirmi masa" keçirilib.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Ombudsman Aparatı və Avropa Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GIZ) birgə təşkilatçılığı ilə hibrid formatda keçirilən "dəyirmi masa"da dövlət qurumlarının, məhkəmə orqanlarının, xarici ölkələrin ombudsman təsisatlarının, beynəlxalq təşkilatların və vətəndaş cəmiyyəti institutlarının nümayəndələri iştirak ediblər.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili Səbinə Əliyeva ölkəmizdə 2020-ci il sentyabrın 27-dən başlayaraq 44 gün davam edən Vətən müharibəsində qazanılan Zəfərin artıq məcburi köçkün vətəndaşlarımızın fundamental insan hüquqlarının təmininə zəmin yaratdığını vurğulayıb. Ombudsman Aparatı olaraq insan hüquq və azadlıqlarının təminatının başlıca vəzifə kimi qəbul edildiyini bildirən Səbinə Əliyeva ümumiləşdirilmiş pozuntular barədə aidiyyəti hökumət qurumları qarşısında qaldırılan məsələlərin diqqətdə saxlanıldığını vurğulayıb.

"Hüquq bərabərliyinin təmin olunması, bərabər imkanların yaradılması, qadınlara və uşaqlara qarşı zorakılıq hallarının aradan qaldırılması, pozulmuş hüquqların bərpası istiqamətində həyata keçirilən tədbirlər daha da gücləndirilməlidir. Müxtəlif kateqoriyalara aid insanların hüquq və azadlıqlarının daha səmərəli müdafiəsinin təmin edilməsi üçün Ombudsman Aparatında müvafiq strukturlar yaradılıb", - deyə ombudsman qeyd edib.

S.Əliyeva diqqətə çatdırıb ki, pandemiya dövründə insanların Ombudsman təsisatına müraciət etməsi üçün imkanlar genişləndirilib. Bununla yanaşı, Ombudsman Aparatında şəhid ailələri və müharibə veteranları, əlilliyi olan şəxslər, uşaqlar kimi həssas əhali qruplarının hüquqları ilə bağlı ayrıca sektorlar yaradılıb, bu sahədə vətəndaş cəmiyyəti ilə daha sıx əməkdaşlıq edildiyi bildirilib.

Daha sonra çıxış edən Almaniyanın Azərbaycandakı səfiri Volfqanq Maniq insan hüquq və azadlıqları sahəsindəki problemlərin təkcə bir ölkəni deyil, bütün dünyanı narahat etdiyini bildirib, bu mövzuda müzakirələrin əhəmiyyətini qeyd edib.

Sonra Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin (GIZ) Azərbaycan üzrə direktoru xanım Karin Hoerman və BMT-nin Azərbaycandakı rezident-əlaqələndiricisi xanım Vladanka Andreyeva "dəyirmi masa"da aparılan müzakirələrin maraqlı keçəcəyinə ümidvar olduqlarını bildiriblər.

Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) "Cənubi Qafqaz üzrə yerli inkişaf üçün yaxşı idarəçilik proqramı"nın müşaviri Samuel Heldin moderatorluğu ilə davam edən tədbirdə dövlət və hakimiyyət qurumları nümayəndələrinin müxtəlif mövzular üzrə çıxışları dinlənilib.

"Ədliyyə orqanlarında yaxşı idarəçiliyin təbliği" mövzusunda Azərbaycan Respublikası ədliyyə nazirinin müavini-Penitensiar Xidmətin rəisi Ceyhun Həsənov, "Son dövrlərdə korrupsiya ilə mübarizə sahəsində həyata keçirilən fəaliyyətlər" mövzusunda Azərbaycan Respublikası baş prokurorunun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov, "İnzibati icraatın gedişləri barədə məlumat: şikayət mexanizmlərinin tətbiqi, iştirakçılar, onların hüquqi vəzifələri, inzibati orqanın yardım vəzifəsi, maraqlı şəxslərin dinlənilmə hüququ" mövzusunda Azərbaycan Respublikası Ali Məhkəmə İnzibati Kollegiyasının sədri Xəqani Məmmədov və başqalarının çıxışlarından sonra iştirakçıların sualları cavablandırılıb.

Tədbirin videokonfrans formatında davam etdirilən hissəsində Türkiyə ombudsmanı Fatma Benli Yalçın, Mərakeş Krallığı ombudsmanı Mohamed Benalilu, Avropa Şurasının Antidiskriminasiya Departamentinin rəhbəri Stefano Valentinin çıxış ediblər.

"Dəyirmi masa"da həmçinin Ombudsman Aparatı və GIZ tərəfindən regionlarda keçirilmiş tədbirlərin yekunları, habelə iştirakçılar arasında aparılmış sorğuların nəticələri də müzakirə edilib.

Yekun nitqində iştirakçılara bir daha təşəkkür edən ombudsman Səbinə Əliyeva milli insan hüquqları təsisatlarının vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığının vacibliyinə toxunub, bunun insan hüquq və azadlıqlarının qorunmasında başlıca amil olduğunu xatırladıb.

# "Nizami Gəncəvi əsərləri rəsmlərin dili ilə" adlı rəsm günü keçirilib

F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə Azərbaycan və dünya ədəbiyyatı xəzinəsinə dəyərli töhfələr verən dahi şair Nizami Gəncəvinin 880 illik yubileyinə həsr edilmiş "Dünyada söz olmasa, nəyə gərək düşüncə" adlı Festival çərçivəsində "Nizami Gəncəvi əsərləri rəsmlərin dili ilə" adlı rəsm günü keçirilib.

Kitabxanadan AZƏRTAC-a bildirilib ki, sərgidə "Tamara" ART, "Günəş" ART, "Palitra" ART studiyalarının dərnək üzvlərinin, bir sıra orta məktəbləri şagirdlərinin, Bakı Avropa, İdrak, Zəngi, Türk-Ankara, 16 nömrəli Texniki Humanitar liseylərinin, İncəsənət Gimnaziyasının hazırlıq kurslarının, Kəlbəcər, Qax, Balakən, Zaqatala, Qusar Mərkəzləşdirilmiş Kitabxana Sisteminin oxucularının 160-a yaxın illüstrasiya və rəsmləri Xətai Sənət Mərkəzinin sərgi salonunda nümayiş etdirilib.

Tədbirdə iştirak edən Mədəniyyət Nazirliyinin, Ombudsman Aparatının, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Gəncliyə Yardım Fondunun nümayəndələr, eləcə də Xalq rəssamı Arif Hüseynov, qrafik rəssam İlqar Mehdiyev gənc rəssamların Nizami əsərlərinə çəkdikləri rəsmləri yüksək qiymətləndirərək, onlara gələcək işlərində uğurlar diləyiblər.

Sərgi zamanı R.Hacıyev adına 15 nömrəli onbirillik, Leopold və M.Rostropoviçlər adına 21 nömrəli onbirillik Musiqi məktəblərinin şagirdlərinin təqdimatında Nizami Gəncəvinin sözlərinə bəstələnmiş mahnılar ifa edilib. Tədbirin sonunda festival iştirakçıları diplom və təşəkkürnamələrlə təltif olunublar.

Yağlı boya, qələm, akvarel və ipək üzərində çəkilən rəsm əsərləri sərgi iştirakçılarında maraq doğurub.

Qeyd edək ki, festivalın keçirilməsində əsas məqsəd qüdrətli söz və fikir ustadı Nizami Gəncəvinin insanları daim əxlaqi kamilliyə çağıran və yüksək mənəvi keyfiyyətlər aşılayan zəngin yaradıcılığını təbliğ etmək, həmçinin mütəfəkkir şairin yaradıcılığının bir daha öyrənilməsi, tanıdılması və gələcək nəsillərə çatdırılmasıdır.

# Azərbaycan-İran sərhədini keçməyə cəhd göstərən sərhəd pozucularından biri zərərsizləşdirilib

Dekabrın 7-də saat 16:00 radələrində Dövlət Sərhəd Xidmətinin (DSX) Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin Yardımlı rayonunun Daşkənd kəndi yaxınlığındakı sərhəd zastavasının xidməti ərazisində sərhəd naryadı tərəfindən iki nəfər naməlum şəxsin dövlət sərhədini pozaraq ölkə ərazisinə gəlməyə cəhd etmələri aşkarlanıb.

DSX-nin Mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, sərhəd zastavası "Silaha" komandası üzrə qaldırılıb, sərhəd naryadı tərəfindən "Dayan" əmri verilərək sərhəd pozucuları təqib edilib, havaya xəbərdarlıq atəşi açılıb. Lakin sərhəd pozucuları əmrə tabe olmayıb və sərhəd naryadına qarşı odlu silahdan atəş açıblar. Sərhəd pozucuları əllərindəki iki bağlamanı ataraq hadisə yerindən geriyə qaçmağa cəhd göstəriblər.

"Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Azərbaycan Respublikası Qanununun tələblərinə uyğun olaraq sərhəd naryadı tərəfindən sərhəd pozucularına qarşı silah tətbiq olunub və onlardan biri zərərsizləşdirilib. Hazırda həmin sərhəd pozucusunun şəxsiyyətinin müəyyənləşdirilməsi üzrə tədbirlər görülür. Digər sərhəd pozucusunun axtarışı üzrə daxili işlər orqanları ilə birgə tədbirlər həyata keçirilir.

Hadisə yerində aşkarlanmış iki bağlamada 4270 ədəd "Marlboro", "Kent", "More" markalı siqaret qutusunun olduğu müəyyən edilib.

Baş verən hadisə barədə İran tərəfi məlumatlandırılıb.

DSX-nin rəhbər vəzifəli zabitləri hadisə yerinə ezam olunublar.

Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti dövlət sərhədinin etibarlı mühafizəsi məqsədilə sərhəd mühafizə və əməliyyat-axtarış tədbirlərini davam etdirir.

***"Azərbaycan"***

Dünya gündəmi

# COVID pandemiyası uzun müddət davam edə bilər

“Gələcək pandemiyalar indikilərdən daha ölümcül ola bilər”. İsveç-Böyük Britaniya istehsalı olan “Oxford-AstraZeneca” vaksininin yaradıcılarından biri, Oksford Universitetinin professoru Sara Gilbert bu barədə xəbərdarlıq edib və yeni təhlükələrə hazırlıq üçün ölkələrin indidən maddi vəsait ayırmasını məsləhət görüb.





Bundan başqa, alimin dediyinə görə, mövcud vaksinlər yeni “Omikron” variantına qarşı daha az effektiv ola bilər. Bəs bizi nə gözləyir?

## Universal peyvənd

Gilbert hesab edir ki, bu böhran sonuncu deyil: “Doğrusu, növbəti virus daha pis ola bilər. Daha yoluxucu, daha ölümcül və ya həm yüksək yoluxucu, həm də yüksək ölümcül ola bilər. Əldə etdiyimiz biliklər itirilməməlidir”.

“Omikron” variantından danışan Gilbert bildirib ki, onun tacvari zülalındakı mutasiyaların virusun yayılma qabiliyyətini artırmasını təsdiq edən faktdır. Lakin yeni variantda digər dəyişikliklər də mövcuddur. Bu isə vaksin vurulması və ya COVID-in digər variantları ilə yoluxma nəticəsində yaranan anticisimlərin “Omikron”a qarşı daha az effektiv ola biləcəyi anlamına gəlir.

Eyni zamanda peyvənd koronavirusun yüngül formasının qarşısını effektiv şəkildə almasa da, bu, o demək deyil ki, xəstəliyin ağır formasından və ya ölümdən daha pis şəkildə qoruyacaq.

Professor gələcəkdə qripə qarşı universal peyvəndin hazırlanacağını istisna etmir. Qeyd edək ki, Sara Gilbert 2020-ci ilin əvvəlində, COVID-19-un ilk dəfə meydana gəldiyi zaman koronavirusa qarşı peyvənd hazırlamağa başlayıb. Hazırda “Oxford-AstraZeneca” vaksini dünyada ən geniş formada tətbiq edilir. Onun dozaları 170-dən çox ölkəyə göndərilib.

## “Omikron”un təhlükəsi nədir

“Omikron” qısa zamanda dünyanın 40-dan artıq ölkəsində aşkar edilib. Əvvəllər COVID-lə xəstələnənlərin yeni varianta yoluxma ehtimalının nə dərəcədə yüksək olduğu hələ ki məlum deyil.

Alimlər pandemiya ərzində yenidən yoluxma (iki dəfə və ya daha çox) göstəricilərində hər hansı bir dəyişiklik tapmaq üçün Cənubi Afrikada təxminən 36 min şübhəli təkrar yoluxma hallarını təhlil ediblər.

Onlar müəyyənləşdiriblər ki, “Beta” və “Delta” variantlarının yayılması zamanı yenidən yoluxma riskinin kəskin artması müşahidə edilməyib. Halbuki laboratoriya tədqiqatlarının nəticələri bu variantların immun müdafiəsindən yayına biləcəyini göstərib.

Amma indi təkrar yoluxmaların artması faktdır. Alimlər hər bir xəstəni birbaşa “Omikron” üçün test etməyiblər, lakin təkrar yoluxmaların yeni bir variantın ortaya çıxması vaxtilə üst-üstə düşməsi səbəbindən artıma görə məhz bu ştamın məsuliyyət daşıdığını güman edirlər.

Tədqiqatçıların fikrincə, “Omikron”da təkrar yoluxma ehtimalı əvvəlki variantlardan iki dəfə yüksəkdir. Bununla yanaşı, yeni bir dalğalanmada immunitetin rolu və bunun virusun digər variantları ilə yoluxmaların artmasına səbəb ola biləcəyi ehtimalının nə qədər böyük olduğu hələ aydın deyil.

Bundan başqa, nəzərə alınmalıdır ki, immun sistemini sıradan çıxaran HİV xəstəliyinə yoluxmuş insanların faizi Cənubi Afrikada yüksəkdir və bu amil də dünyanın qalan hissəsi üçün nəticələrin şərhini çətinləşdirir.

Anticisimlərin “Omikron”a necə təsir edəcəyini göstərən laboratoriya araşdırmalarının nəticələrinin qısa zamanda açıqlanacağı gözlənilir.

*Rizvan CƏFƏROV, “Azərbaycan”*







# Bəzi bölgələrdə havanın yağıntılı olacağı ehtimalı var

Azərbaycanda dekabrın 8-nə gözlənilən hava proqnozu açıqlanıb.




Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə duman, çiskin olacaq. Mülayim cənub küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 8-10°, gündüz 12-15° isti, Bakıda gecə 7-9°, gündüz 12-14° isti olacaq. Atmosfer təzyiqi 767 millimetr civə sütunundan 761 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 85-95, gündüz 65-75 faiz təşkil edəcək.

Sinoptiklərin tibbi-meteoroloji proqnozuna görə, dekabrın 8-də Abşeron yarımadasında meteoroloji amillərin mülayim tərəddüdü gözlənilir ki, bu da bəzi meteohəssas insanlar üçün əsasən əlverişlidir.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi şimal və qərb rayonlarında yağış, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə duman olacaq. Cənub-qərb küləyi əsəcək, bəzi rayonlarda arabir güclənəcək. Havanın temperaturunun gecə 1-6°, gündüz 13-17° isti, dağlarda gecə 3-6° şaxta, gündüz 5-10° isti olacağı proqnozlaşdırılır.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə yağış, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 3° şaxtadan 2°-dək° isti, dağlarda 7° şaxta, gündüz 8-13° isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə havanın yağıntılı olacağı, qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi arabir güclənəcək. Havanın temperaturunun gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-10° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə yağıntılı olacağı, qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi arabir güclənəcək. Havanın temperaturunun gecə 3° şaxtadan 2°-dək isti, dağlarda 3-6° şaxta, gündüz 5-10° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə yağış yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, arabir sürətlənəcək. Havanın temperaturunun gecə 1-6°, gündüz 10-15° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi yerlərdə yağıntılı olacağı, qar yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Cənub-qərb küləyi əsəcək, gündüz bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 0-5°, gündüz 12-17° isti, dağlarda gecə 0-5° şaxta, gündüz 8-13° isti olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam bəzi qərb rayonlarında yağış yağacağı gözlənilir. Gecə və səhər saatlarında duman olacaq. Qərb küləyi əsəcək, arabir sürətlənəcək. Havanın temperaturu gecə 1-6°, gündüz 13-17° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin səhər bəzi yerlərdə yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3-7°, gündüz 10-15° isti, dağlarda gecə 1-5°, gündüz 7-12° isti olacağı gözlənilir.


# OXUCULARIN NƏZƏRİNƏ!

# “AZƏRBAYCAN”

*qəzeti 2022-ci il üçün abunə yazılışı kampaniyasına başlayır!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| “Azərpoçt” ASC | (012) 598-49-55, (051) 225-02-13 |
| “Qaya” firması | (012) 566-77-80, (050) 214-40-53 |
| “Kaspi” MMC | (012) 432-39-55, (012) 510-82-24 |
| “Region Press” MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| “Səma-M” MMC | (012) 594-09-59 |
| “Ziya” LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| “Pressinform” MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| “City press” MMC | (055) 819-09-26 |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**


# Sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan çempionatının açılış mərasimi olub

Dekabrın 7-də sərbəst və yunan-Roma güləşi üzrə Azərbaycan çempionatının açılış mərasimi keçirilib.







AZƏRTAC xəbər verir ki, Bakı İdman Sarayında təşkil olunan mərasimdə əvvəlcə ölkəmizin müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Azərbaycanın gənclər və idman nazirinin müavini Mariana Vasileva açılış mərasimində çıxış edərək ikiillik fasilədən sonra ölkə birinciliyinin keçirilməsinin önəmini vurğulayıb. Çempionatın yüksək səviyyədə təşkil olunduğunu vurğulayan nazir müavini iştirakçılara uğurlar arzulayıb.

Milli komandaların heyətinin formalaşdırılması baxımından çempionatın önəmindən danışan Gənclər və İdman Nazirliyinin İdman şöbəsinin müdiri, Olimpiya çempionu Fərid Mansurov fərqlənən güləşçilərin gələn il Avropa və dünya çempionatlarında güclərini sınayacaqlarını deyib. Yarışda güclü idmançıların mübarizə apardıqlarını vurğulayan nazirlik rəsmisi pəhləvanlarımızın beynəlxalq arenada uğurlu çıxışları barədə danışıb.

Azərbaycan Güləş Federasiyasının prezident əvəzi Namiq Əliyev cari ilin idmançılarımız üçün məsuliyyətli olduğunu, pəhləvanlarımızın Tokio Olimpiya Oyunlarında üç medal qazandıqlarını və təmsilçilərimizin irimiqyaslı turnirlərdə uğurla çıxış etdiklərini vurğulayıb. “2024-cü ildə Parisdə keçiriləcək Yay Olimpiya Oyunlarına az müddət qalır. Gələn ildən Olimpiya tsiklinə start veriləcək. Ölkə çempionatında uğurla çıxış edən güləşçilər növbəti ildə keçiriləcək mötəbər yarışlarda iştirak hüququ qazanacaqlar. Koronavirus pandemiyası səbəbindən iki il idi respublika birinciliyi keçirilmirdi. Güləşçilərin ölkə çempionatında yenidən çıxış etmələri çox sevindiricidir”, - deyən N.Əliyev yarışı açıq elan edib.

Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra 7 çəki dərəcəsində final görüşlərinə start verilib.

Azərbaycan Güləş Federasiyasının Gənclər və İdman Nazirliyi ilə birgə təşkil etdiyi yarış beynəlxalq və milli dərəcəli hakimlər tərəfindən idarə olunur.

Çempionatın proqramına əsasən, yarışın birinci günündə yunan-Roma güləşi üzrə 55, 60, 63, 67, 72, 77 və 82 kiloqram çəki dərəcələrində qaliblər müəyyənləşəcək. Dekabrın 8-də klassik güləşdə 87, 97 və 130, sərbəst güləşdə isə 57, 61, 65 və 70 kiloqram çəki dərəcələrində medalçıların adına aydınlıq gələcək. Yarışın sonuncu günündə - dekabrın 9-da isə 74, 79, 86, 92, 97 və 125 kiloqram çəki dərəcələrində ölkənin ən güclü sərbəst güləşçiləri bəlli olacaq.

Karantin rejimi ilə əlaqədar Azərbaycan çempionatı azarkeşsiz keçirilir.

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti

**ALLAH RƏHMƏT ELƏSİN!**

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Kompüter texnologiyaları və kibertəhlükəsizlik kafedrasının müdiri professor Vaqif Qasımova qardaşı

**AKİF QASIMOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

Qeydiyyat nömrəsi 1

“Azərbaycan” qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, “Azərbaycan” nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5585
Sifariş 2558
Qiyməti 40 qəpik